HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV


# Vergilər

№ 13 (855) ■ 12 aprel 2017 www.vergiler.az Qiyməti: 60 qəp.


# Prezident İlham Əliyev: *«Azərbaycan bütün sahələrdə sürətlə inkişaf edir»*

**Aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.**



İclasda giriş nitqi ilə çıxış edən dövlətimizin başçısı bildirib ki, cari ilin birinci rübündə ölkəmizdə iqtisadi inkişaf təmin olunub, bütün proqnozlarımız öz əksini tapmaqdadır: «Hələ keçən ilin sonlarında mən tam əminliklə qeyd etmişdim ki, 2017-ci ildə ölkəmizin sürətli inkişafı təmin ediləcəkdir. Birinci rübün nəticələri göstərir ki, Azərbaycan bütün sahələrdə çox sürətlə inkişaf edib, bizim beynəlxalq mövqelərimiz möhkəmlənib, ölkə daxilində proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf təmin edilir, bütün sosial məsələlər öz həllini tapır».

İqtisadiyyatımızın əsas göstəricilərinə nəzər salan Prezident İlham Əliyev qeyd edib ki, ilin ilk 3 ayı ərzində qeyri-neft sektoru 2,4 faiz artıb, qeyri-neft sənayesində artım 2 faiz səviyyəsində olub, kənd təsərrüfatı 3,5 faiz, bitkiçilik 20 faiz inkişaf edib. Birinci rübdə valyuta ehtiyatlarımız 1 milyard dollar səviyyəsində artıb, hazırda strateji valyuta ehtiyatlarımız 38,5 milyard dollar təşkil edir, Bu ilin 3 ayı ərzində ticarət dövriyyəsi 15 faiz, ixrac təxminən 50 faiz, qeyri-neft ixracı 10 faizə yaxın artıb, idxal isə 17 faiz azalıb. İdxalın azalması, ixracın kəskin artması iqtisadi sabitliyimizi təmin edir. Ticarət dövriyyəmizin müsbət saldosu 1 milyard dollar səviyyəsindədir.

Ölkə Prezidenti qeyd edib ki, dövlət büdcəsinin icrası da uğurla gedir: «Həm gömrük, həm vergi orqanları rüblük planı artıqlaması ilə yerinə yetiriblər. Bu, yaxşı haldır. Eyni zamanda, büdcə xərcləri də 100 faiz icra edilməlidir. Çünki əvvəlki illərdə bəzi hallarda investisiya xərclərində nəzərdə tutulan vəsaitdən tam istifadə edilmirdi. Bu il isə həm qəbul edilmiş pul proqramı, eyni zamanda, xərclərlə gəlirlər arasındakı tarazlıq tam təmin edilməlidir. Builki investisiya proqramı kifayət qədər təsirli olmalıdır. Bu gün ölkə üçün ən lazımlı layihələrə kifayət qədər vəsait ayrılır və birinci rübdə işlər yaxşı gedir.Biz bu il valyuta ehtiyatlarımızı üç ay ərzində 1 milyard dollar səviyyəsində artırmışıq. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan beş dəfədən çox artıqdır. Hesab edirəm ki, bu, dünya miqyasında çox nadir hallarda rast gəlinən bir mənzərədir. Bu baxımdan, Azərbaycan, əlbəttə ki, fərqlənir. Bir çox inkişaf etmiş ölkələrdə xarici borc ümumi daxili məhsuldan çoxdur. Valyuta ehtiyatları xarici borcun heç 20 faizini ödəyə bilmir. Ancaq bizdə xarici borc ümumi daxili məhsulun 20 faizini təşkil edir, çox aşağı göstəricidir. Valyuta ehtiyatlarımız isə xarici borcdan beş dəfədən çox artıqdır».

Bu göstəricilərin iqtisadi inkişafımızı aydın əks etdirdiyini, gələcəkdə də iqtisadi potensialımızı gücləndirəcəyimizi deyən dövlət başçısı birinci rübdə 85 min yeni iş yerinin yaradıldığını, onun 40 mininin özəl sektoru əhatə etdiyini vurğulayıb. Azərbaycanın tranzit potensialının artdığını, «Cənub Qaz Dəhlizi», Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin uğurla icra olunduğunu xatırladan Prezident İlham Əliyev Azərbaycanda turizmin inkişafına da toxunub, bu ilin birinci rübündə turistlərin ölkəmizə səfərinin 25 faiz artdığını diqqətə çatdırıb. Qeyd olunub ki, təkcə 3 ay ərzində əcnəbi turistlərə «ASAN viza» xətti ilə 40 min viza verilib.

2017-ci ilin ötən dövründə Azərbaycanın beynəlxalq nüfuzunun xeyli artdığını vurğulayan dövlətimizin başçısı birinci rübdə 7 xarici səfər etdiyini, bu səfərlərin çox böyük əhəmiyyəti olduğunu qeyd edib: «İlin əvvəlindən beynəlxalq fəaliyyətimiz də çox uğurlu olmuşdur. Mən birinci rübdə 7 xarici səfər etmişəm. Bu səfərlərin çox böyük əhəmiyyəti var. İlk növbədə, beynəlxalq konfranslarda mənim iştirakım ölkəmizin maraqlarının təmin edilməsi üçün çox böyük əhəmiyyət daşıyır. Bilirsiniz ki, dünyanın iki mötəbər beynəlxalq tədbiri var - biri Davos Ümumdünya İqtisadi Forumu, hansı ki, siyasi və iqtisadi məsələləri diqqətdə saxlayır və dünyanın siyasi və iqtisadi elitası orada iştirak edir. İkincisi isə Münxen Təhlükəsizlik Konfransıdır, bu da daha çox təhlükəsizlik və siyasi məsələlərin müzakirəsinə həsr olunur. Hər iki mötəbər tədbirdə iştirak edərkən mən ölkəmizin mövqeyini, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın işğalçı siyasəti ilə bağlı mövqeyini dünya ictimaiyyətinə bir daha çatdırdım. Eyni zamanda, Davos İqtisadi Forumunda dövlət başçıları, aparıcı beynəlxalq şirkətlərin rəhbərləri ilə çoxsaylı görüşlərim, əlbəttə ki, bizim maraqlarımızı təmin edir. Mən 10 ildən çoxdur ki, Davos Ümumdünya İqtisadi Forumunda iştirak edirəm və o görüşlər əsnasında ölkəmiz üçün bir çox önəmli layihə həyata keçirilir. Əlbəttə, bizim bu tədbirlərdə iştirakımız, fəal rolumuz ölkəmizə rəğbəti, hörməti artırır və bu gün Azərbaycan beynəlxalq arenada çox etibarlı tərəfdaş kimi tanınır».

Prezident İlham Əliyev bu il bir neçə ölkəyə rəsmi səfər etdiyini və bu səfərlərin hər birinin ölkəmiz üçün mühüm əhəmiyyət daşıdığını bildirib. Pakistan İslam Respublikasına, Qətər Dövlətinə, İran İslam Respublikasına və Fransaya rəsmi səfərini xatırladan dövlətimizin başçısı qeyd edib ki, bütün bunlar bizim diplomatiyamızın böyük uğuru kimi qiymətləndirilməlidir: «Bu səfərlər nəticəsində beynəlxalq mövqelərimiz möhkəmlənir və Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkədir. Hətta bir-biri ilə o qədər də yaxşı münasibətlər qurmayan ölkələr Azərbaycanla əməkdaşlığa gəldikdə, tərəddüdsüz və birmənalı şəkildə bu əməkdaşlığın dərinləşməsinə maraq göstərirlər və maraqlıdırlar. Biz isə bütün ölkələrlə, xüsusilə bölgədə yerləşən ölkələrlə əlaqələrimizi daha da genişləndiririk. Bu, həm siyasi, həm iqtisadi maraqlarımızı təmin edir, həm də bölgədə əməkdaşlıq ruhunu gücləndirir və sabitliyi möhkəmləndirir. Bu səfərlər həm ölkəmizə olan hörmətin əlamətidir, eyni zamanda, səfərlər çərçivəsində çox ciddi müzakirələr aparılır».

Prezident İlham Əliyev bu ilin birinci rübündə Azərbaycanda keçirilən V Qlobal Forumun əhəmiyyətindən də danışmışdır: Bu Forumun artıq beynəlxalq miqyasda önəmli tədbirlərin sırasına daxil edildiyini deyən dövlətimizin başçısı dünyanın 40-dan çox fəaliyyətdə olan və sabiq dövlət, hökumət başçılarının Azərbaycanda bir araya gəlməsini böyük hadisə adlandırmışdır: «Bir hadisəni də qeyd etmək istəyirəm. Bu da çox əlamətdar hadisədir. Əslində, bu hadisə bizim dünyadakı rolumuzu əks etdirir. Bu da Amerika və Rusiya ordularının Baş Qərargah rəislərinin birinci görüşünün Bakıda keçirilməsi hadisəsidir. Hər iki ölkə Azərbaycanı birinci görüş üçün seçməklə həm bizə olan hörmətini növbəti dəfə ifadə edir, həm də bu, bizim rolumuzu əyani şəkildə sübut edir. Azərbaycan bu gün nəinki bölgə çərçivəsində, artıq dünya miqyasında da etibarlı tərəfdaş, müstəqil, ləyaqətli ölkə kimi özünü təqdim edib. Əlbəttə ki, birinci rübdə beynəlxalq fəaliyyətimizdə bir çox digər önəmli hadisələr də baş vermişdir. Ancaq əsas məsələlər bundan ibarətdir».

Qarabağ problemindən söz açan Prezident İlham Əliyev bildirib ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. BMT Təhlükəsizlik Şurası bu münaqişə ilə bağlı qəbul etdiyi dörd qətnamə icra edilməli və erməni işğalçı qüvvələri işğal olunmuş torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Dövlətimizin başçısı bu məsələ ilə bağlı iki mühüm amilə diqqət çəkib: «Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son bir neçə hadisəni qeyd etmək istəyirəm. Birincisi, Dağlıq Qarabağda keçirilən qondarma «referendum»u qeyd etmək istəyirəm. Bu «referendum»un keçirilməsi ilə Ermənistan özünü bir daha biabır və ifşa etdi. Mən bir dəfə demişəm və bir daha demək istəyirəm ki, onlar orada nə qədər çox qanunsuz «referendum» keçirsələr, bu, bir o qədər çox bizim xeyrimizə işləyir. Çünki bütün qonşu ölkələrimiz, Minsk qrupuna həmsədrlik edən ölkələr, Avropa İttifaqı və bir çox ölkələr dərhal bu «referendum»u pislədilər. Bəyan etdilər ki, bu «referendum»u tanımırlar və Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Əslində, bu «referendum»un keçirilməsi ilə onlar bütün ölkələri bu həqiqəti bir daha təkrar etməyə sövq etdilər. Əlbəttə ki, bütün beynəlxalq aləm bu «referendum»u qəbul etməməklə bizim ərazi bütövlüyümüzə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz bu prinsip əsasında həll edilməsinə öz dəstəyini göstərmiş oldular. Digər hadisə də əlamətdardır. Çünki ilk dəfə olaraq, bizim qanunlarımızı bir neçə dəfə kobudcasına pozmuş, Dağlıq Qarabağa qanunsuz səfərlər etmiş, Azərbaycan dövlətini, xalqını təhqir etmiş bir nəfər xaricdə saxlanılaraq bütün dünyanın gözü qarşısında Azərbaycana təhvil verildi və Azərbaycana gətirildi. Bu, ilk dəfə baş verən hadisədir. Bu, ədalətin bərpasıdır. Bu, beynəlxalq hüququn aliliyidir. Ekstradisiya ilə bağlı olan bütün məsələlər beynəlxalq qanun və konvensiyalar əsasında baş verib».

Azərbaycan Prezidenti Cocuq Mərcanlı kəndinin bərpasının aparıldığını, orada yeni qəsəbənin salındığını qeyd edib və bunu tarixi hadisə adlandırıb. Bildirib ki, birinci növbədə 50 ev, məktəb, uşaq bağçası, məscid tikilir, yeni yol salınır. Sonra əlavə 150 ev və tibb məntəqəsi tikiləcək. Dövlət başçısı məcburi köçkünlərin sosial- mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində layihələrin həyata keçirildiyini də vurğulayıb: «Bu il köçkünlər üçün digər yerlərdə də yeni binalar tikilir, qəsəbələr salınır. Onlardan biri Tərtər rayonunda inşa edilən böyük qəsəbədir, yaxın aylarda istifadəyə veriləcək. Eyni zamanda, Bakı və Sumqayıt şəhərlərində qəzalı binalarda yaşayan köçkünlərin problemləri də, əminəm ki, yaxın vaxtlarda öz həllini tapacaq. İlk növbədə, ən ağır vəziyyətdə yaşayan dörd min köçkün ailəsi yeni evlərə köçürüləcəkdir. Bu proses mərhələli yollarla həll ediləcək, həm yeni binalar tikilir, eyni zamanda, vaxtilə tikilmiş mövcud binalarda mənzillər alınacaq və məcburi köçkünlər orada yerləşdiriləcəkdir. Hesab edirəm ki, yaxın bir neçə aydan sonra birinci qrup köçkünlər yeni evlərə köçürüləcəkdir».

... Sonra müdafiə sənayesi naziri Yavər Camalov, «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov, «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev rəhbərlik etdikləri qurumlar tərəfindən görülən işlər və qarşıda duran vəzifələr barədə çıxış ediblər.

İclasa yekun vuran Prezident İlham Əliyev 2017-ci ilin ilk aylarının yaxşı nəticələrlə yekunlaşdığını, makroiqtisadi sabitliyin möhkəmləndirilməsinin önəmli məsələlərdən olduğunu qeyd edib. Dövlətimizin başçısı ölkədə süni qiymət artımına yol verilməməsi üçün ciddi addımların atılmasının, investisiya proqramlarının tam şəkildə icra edilməsinin vacibliyini diqqətə çatdırıb, inşaat sektorunda canlanmanın müşahidə edildiyini və paytaxtımızın müxtəlif yerlərində müddəti keçmiş, yararsız vəziyyətdə olan binaların sökülərək yerində hündürmərtəbəli müasir binaların tikildiyini vurğulayıb. Sənaye istehsalı və kənd təsərrüfatını prioritet sahələr adlandıran Prezident İlham Əliyev qeyri-neft sektorunun istehsal etdiyi məhsulların ixracı ilə bağlı dövlət siyasətinin aparıldığını, müxtəlif ölkələrdə ticarət evlərinin yaradıldığını, ticarət-ixrac missiyalarının həyata keçirildiyini qeyd edib, bu istiqamətdə xarici mediada reklam kampaniyalarının aparılmasının, yeni ixrac bazarlarına çıxışın təmin edilməsinin, logistika mərkəzlərinin yaradılmasının vacibliyini bildirib. Bölgələrdə məşğulluğun artırılmasının daim diqqətdə saxlanılmasının zəruriliyinə toxunan dövlətimizin başçısı sahibkarlığın inkişafı ilə bağlı güzəştli kreditlərin verilməsi prosesinin davam etdiriləcəyini diqqətə çatdırıb.

## İslam dünyasını bir araya gətirən möhtəşəm tədbir

Aprelin 5-də paytaxtımızdakı Daş Salnamə Muzeyində «Bakı-2017» IV İslam Həmrəyliyi Oyunlarının Xəzərdən başlayan su səyahətinə start verilib. Azərbaycan Prezidenti İlham Əliyev, «Bakı-2017» İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva, ailə üzvləri, Səudiyyə Ərəbistanı Krallığının Şahzadəsi, İslam Həmrəyliyi İdman Federasiyasının prezidenti və Səudiyyə Ərəbistanı Milli Olimpiya Komitəsinin prezidenti Abdullah bin Mosaad bin Əbdüləziz Əl Səud mərasimdə iştirak ediblər.

Mərasimdə çıxış edən dövlətimizin başçısı bildirib ki, IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi ölkəmizin həyatında çox əlamətdar hadisədir: «Bir aydan bir qədər sonra 57 ölkəni təmsil edən 3 mindən çox idmançı Azərbaycanda yarışacaq. Biz bütün qonaqları qəbul etməyə hazırıq, onları səbirsizliklə gözləyirik. Qeyd etdiyim kimi, bu Oyunlarda 57 ölkənin idmançıları iştirak edəcəklər və bu, Oyunların tarixində bir rekorddur. Biz buna çox sevinirik. Eyni zamanda, minlərlə rəsmi nümayəndə, qonaq ölkəmizə gələcək. Əminəm ki, qonaqların ölkəmizlə, onun reallıqları ilə, bizim qədim tariximizlə tanış olmaq üçün imkanları olacaqdır».

Bu il ölkəmizdə «İslam Həmrəyliyi İli» elan edildiyini xatırladan Prezident İlham Əliyev qeyd edib ki, bu da bütün müsəlman ölkələrini bir-biri ilə daha da sıx birləşdirmək üçün irəli sürülən önəmli təşəbbüsdür: «Bu gün bütün müsəlman ölkələri birlik, həmrəylik nümayiş etdirməlidirlər. Əminəm ki, gələn ay keçiriləcək Oyunlar həm böyük idman bayramı olacaq, həm də bizim dostluğumuzu əks etdirəcək. Bütün müsəlman ölkələri 10 gün ərzində Bakıda öz təmsilçiləri vasitəsilə bir-biri ilə sıx əlaqələr quracaq, bir-birinin əlini sıxacaqlar. Biz Bakıdan bütün dünyaya nümayiş etdirəcəyik ki, İslam aləmi birdir və bizim birliyimiz bizim gücümüzü artırır».

Dövlətimizin başçısı qeyd edib ki, İslam Həmrəyliyi Oyunlarının rəmzi sudur: «Su həyat deməkdir. Təbiət və insan susuz yaşaya bilməz. Azərbaycan füsunkar təbiətə malik bir ölkədir. Gözəl göllərimiz, çaylarımız, bulaqlarımız, şəlalələrimiz, gözəl Xəzər dənizimiz bizim təbii sərvətimizdir. Bu gün Xəzərin sahilindən ölkəmizin müxtəlif istiqamətlərinə böyük səyahət başlayır. Su, əslində bir rəmzdir və Oyunların rəmzi məhz sudur. Hesab edirəm ki, bu seçim yüksək qiymətə layiq olmalıdır. Qoy, bizim yolumuz su kimi aydın, niyyətimiz su kimi təmiz olsun».

Sonra mərasim bədii hissə ilə davam edib, möhtəşəm atəşfəşanlıq olub.

## Beynəlxalq turizm və səyahətlər sərgisi

Aprelin 6-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində «AITF-2017» XVI Azərbaycan Beynəlxalq turizm və səyahətlər və «HOREX Caucasus-2017» XI Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olublar. Bildirilib ki, builki sərgidə 22 ölkəni təmsil edən 272 şirkət iştirak edir. Ziyarətçilər 90-dan artıq xarici turizm istiqaməti, eləcə də ölkə daxilində istirahət imkanları ilə tanış ola biləcəklər. Sərgidə 17 milli və regional stend təmsil olunur.

Sərgidə ölkəmizin qədim mədəniyyət beşiyi olan şəhərlərin, o cümlədən bölgələrinin turizm imkanları nümayiş etdirilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qarabağ stendi ilə də tanış olub, «ASAN Viza»nın stendinə baxıblar, Bakı Şopinq Festivalının stendində olublar.

Dövlətimizin başçısına festival zamanı alınacaq məhsula görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması prosesi nümayiş olunub.

## BU NÖMRƏMİZDƏ


VERGİ DAXİLOLMALARI ÜZRƏ BÜDCƏ TAPŞIRIQLARI İCRA OLUNUB — 2

VAHİD PLATFORMANIN YARADILMASI MÜASİR ÇAĞIRIŞLARIN TƏLƏBİDİR — 3

KÖNÜLLÜ ƏMƏLETMƏ ŞƏFFAF XİDMƏTDƏN QAYNAQLANIR — 4

TURİZM SEKTORU İQTİSADİYYATIN AYRILMAZ TƏRKİB HİSSƏSİDİR — 5

# Vergi daxilolmaları üzrə büdcə tapşırıqları icra olunub

2017-ci ilin yanvar-mart ayları ərzində vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə 1 miyard 420 milyon 746 min manat məbləğində vəsait ödənilib. Bununla da Vergilər Nazirliyi üzrə müəyyənləşdirilmiş proqnoz tapşırıqlarına 103,8% əməl olunub.

# Vergi əməkdaşları arasında ənənəvi şahmat turniri

Aprel ayının 8-də vergi xidməti əməkdaşları arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş 12-ci ənənəvi şahmat turnirinə start verilib. Turnir Gənclər və İdman Nazirliyinin və Azərbaycan Şahmat Federasiyasının dəstəyi ilə Vergilər Nazirliyi tərəfindən təşkil olunub.



Açılış mərasimində çıxış edən Vergilər Nazirliyi Aparatının rəhbəri Ağasəməd Əfəndiyev Azərbaycanda şahmatın zəngin inkişaf tarixi barədə danışıb, bildirib ki, şahmatın sürətlə inkişaf etməsi, şahmatçılarımızın beynəlxalq səviyyədə uğurlarının artması ümummilli lider Heydər Əliyevin ötən əsrin 70-ci illərində respublikamıza rəhbərlik etməyə başlamasından sonra geniş vüsət alıb.

Bu gün Prezident İlham Əliyevin də şahmatın inkişafına böyük diqqət yetirdiyini nəzərə çatdıran aparat rəhbəri bu məqsədlə respublikamızda şahmatın inkişaf etdirilməsi barədə xüsusi sərəncamlar imzalandığını, bütün bunların Azərbaycan şahmatçılarının beynəlxalq yarışlarda yeni qələbələr qazanmalarına zəmin yaratdığını vurğulayıb: «Şahmatın maddi-texniki bazasının gücləndirilməsi, şahmatçılara göstərilən dövlət qayğısının nəticəsidir ki, şahmatçılarımızın beynəlxalq yarışlarda qazandıqları nailiyyətlərin sayı günügündən artmaqdadır».

Qeyd olunub ki, müstəqilliyini bərpa edənədək Azərbaycanda beynəlxalq ada sahib cəmi 5 şahmatçı olsa da, hazırda 22 beynəlxalq qrossmeyster, onlarca beynəlxalq usta, FİDE ustası adına malik şahmatçılarımız var. Azərbaycan şahmatçıları FİDE-nin reytinqində yüksək yerləri tutur, ölkəmizin kişilərdən ibarət şahmat komandası iki dəfə Avropa çempionu olub. 2016-cı ildə Azərbaycan şahmat tarixində ilk dəfə olaraq Dünya Şahmat Olimpiadasını qəbul edib. Artıq 4 ildir ki, ardıcıl olaraq Şəmkir şəhərində keçirilən, Azərbaycanın tanınmış mərhum şahmatçısı, beynəlxalq qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunmuş ənənəvi turnirdə FİDE reytinqində yüksək pillələrdə qərarlaşan qrossmeysterlər iştirak edirlər.

# Elektron qaimənin tətbiqi vergi ödəyicilərinin mənafeyinə xidmət edir



Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji
araşdırmalar departamentinin
baş direktorunun müavini
Nicat İmanovun müsahibəsi

***- Nicat müəllim, 2017-ci il aprelin 1-dən ölkəmizdə elektron qaimə-faktura tətbiq edilir. Bu sahədə görüşmüş işlərin xülasəsi nədən ibarətdir?***

- 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, sahibkarlar arasındakı münasibətlərin tam hüquqi şəkildə tənzimlənməsi, onların bir-birlərinə təqdim etdikləri mallara (işlərə və xidmətlərə) görə qaimələrin elektron qaydada təqdim olunmasına dair öhdəliklər müəyyənləşib. Əlavə dəyər vergisinin (ƏDV) məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən təqdim edilmiş mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə 2017-ci il aprelin 1-dən elektron qaimə-faktura tətbiq edilir.

Artıq Nazirlər Kabineti «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları»nı təsdiqləyib. Qaydalara əsasən, Azərbaycanda elektron qaimə-fakturanın təsdiq edilmiş forma və rekvizitlərə uyğun olaraq mərkəzləşdirilmiş qaydada uçotunun aparılmasını və tətbiqini Vergilər Nazirliyi həyata keçirilir. Vergilər Nazirliyinə elektron qaimə-fakturanın tətbiqi ilə əlaqədar müvafiq texniki imkanların yaradılmasını təmin edən tədbirlərin görülməsi tapşırılmışdı.

Qeyd edim iki, elektron qaimə-fakturanın tətbiqi ilə bağlı vergi ödəyiciləri kifayət qədər məlumatlandırılıb, qaranlıq qalan bütün məsələlər onlara izah olunub. Texniki prosedurlarla bağlı heç bir problem yoxdur.

***- Oxucuları, xüsusilə sahibkarları maraqlandıran əsas məsələlərdən biri elektron qaimə-fakturanın təyinatı ilə bağlıdır: bu nə üçün lazımdır?***

- İndiyə qədər sahibkarlıq subyektləri arasında əməliyyatların rəsmiləşdirilməsi zamanı qaimə-fakturaların kağız formasından istifadə olunurdu. Bu da əksər hallarda vergidən yayınma hallarına şərait yaratmaqla yanaşı, inzibatçılıq xərclərinin artmasına, əlavə vaxt sərfiyyatına səbəb olurdu. Bu sistem təkcə vergi sahəsi ilə məhdudlaşmır, hazırda maliyyə, bank sferasının elektron mühasibatlıq sistemləri yeni əsaslar üzərində qurulur, ödəniş sistemlərində dəyişikliklər baş verir, digər sahələrdə hesablaşmaların strukturu təkmilləşdirilir. Bütün bu amillər hüquqi çərçivədə də dəyişiklikləri və e-qaimənin tətbiqini labüd edir. Məhz bu baxımdan, e-qaimə-faktura inzibatçılıq xərclərinin aşağı salınması, məlumat mübadiləsinin çevikliyinin artırılması və aparılan əməliyyatlarda şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Bu əməliyyatların şəffaflaşdırılması, rəsmiləşmə prosedurunun sadələşdirilməsi, operativliyin təmin edilməsi, inzibatçılıq xərclərinin azaldılması və sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaları məqsədilə Vergi Məcəlləsinə bir sıra dəyişikliklər edilib. Məcəlləyə «Elektron qaimə-fakturalar» adlı 71-1-ci maddə və 16.1.11-6-cı və 16.1.11-7-ci maddələr əlavə olunub.

Digər tərəfdən, gəlir və xərclərin, həmçinin vergitutma obyektlərinin uçotunun aparılmaması vergidən yayınmaya gətirib çıxarır. Ümumiyyətlə, ölkə ərazisində malların sənədsiz satılması qanuna ziddir.

***- Elektron qaimənin tətbiqindən gözlənilən nəticələr nədir?***

- Bu addımın atılması vergi ödəyicilərinin özləri üçün əhəmiyyətlidir. Ən böyük üstünlük qaimə-fakturaların mətbəələrdə sifariş edilməsi və hazırlanması ilə əlaqədar xərclərin və vaxt itkisinin azaldılmasıdır. Elektron qaimənin tətbiqi nəticəsində heç bir mətbəəyə müraciət etmədən, əlavə vaxt itkisinə yol vermədən, birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək olar. Bunlar isə vergi ödəyicisinin əməliyyatlarının şəffaflaşmasına şərait yaradacaq və nəticədə vergi orqanı tərəfindən bu əməliyyatların real vaxt rejimində görmək imkanı olduğundan, həmin vergi ödəyicilərində nəzarət tədbirlərinin azalmasına səbəb olacaqdır.

Qeyd edim ki, Vergilər Nazirliyi ilk dəfə olaraq 2010-cu ildə ƏDV ödəyiciləri üçün e-fakturanın tətbiqinə başlayıb və nəticə uğurlu olub.

***- Sirr deyil ki, öz qanuni öhdəliklərinə məsuliyyətsiz yanaşan, qaimə-fakturalara lazımınca əhəmiyyət verməyən vergi ödəyiciləri də var. Onları nə gözləyir?***

- Vergi orqanları tərəfindən tətbiq olunan cərimələrin azaldılmasından sui-istifadə edərək e-qaimə-fakturaya etinasız yanaşan sahibkarlar sanksiyalara məruz qalmayacaqlarını düşünməməlidirlər. Çünki qanunla müəyyən edilmiş öhdəliklərə riayət olunmamasına görə cərimə və sanksiyalar öz qüvvəsində qalır və layihədə e-qaimənin tətbiqindən yayınan sahibkarlar üçün cəza mexanizmi nəzərdə tutulub.

Səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası, idxal mallarına münasibətdə idxal gömrük bəyannaməsindən ən azı biri olmadıqda alıcı təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası ilə üzləşəcək.

## E-qaimə-faktura inzibatçılıq xərclərinin aşağı salınması, məlumat mübadiləsinin çevikliyinin artırılması və aparılan əməliyyatlarda şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır

# Vergilər Nazirliyində brifinq keçirilib

**Aprelin 5-də Vergilər Nazirliyində Bakı şəhərində təşkil ediləcək ticarət festivalı («shopping festival») zamanı alınan mallara görə ödənilən məbləğdən ƏDV-nin geri qaytarılması mexanizminin şərhinə həsr edilmiş brifinq keçirilib.**

Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov bildirib ki, ticarət festivalları dövründə ƏDV-nin qaytarılması qaydası dövlət başçısının 2017-ci il 20 fevral tarixli fərmanı ilə təsdiq edilib. ƏDV-nin qaytarılması ilə ticarət festivallarının operatoru kimi Vergilər Nazirliyi məşğul olur: ƏDV-nin qaytarılması işlərini təşkil edir, müvafiq proqram təminatının və vahid məlumat bazasının yaradılmasını və idarə olunmasını təmin edir.

Bildirilib ki, ticarət festivalı dövründə hər bir alıcı ƏDV-nin qaytarılması ilə bağlı məlumat ala bilər və satıcılar bunu izah edəcəklər. Əgər alıcılar əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olarsa, satıcılar onlara ƏDV-nin qaytarılmasının 2-ci qaydası barədə də məlumat verməlidir. Qeyd olunub ki, «Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası», yəni, qısaca olaraq, «Tax free» sistemi mövcuddur. Alıcı xarici vətəndaş olarsa, ona bu barədə də məlumat veriləcək, bundan sonra həmin əcnəbi şəxs aldığı mallara görə ödənilmiş ƏDV-nin qaytarılması üsulunu bu qaydalardan birinin tələbləri çərçivəsində özü seçə bilər.

Alıcı ƏDV-nin qaytarılması hüququndan istifadə etmək istədikdə satıcı Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalında elektron vergi hesab-fakturası (e-VHF) tərtib edir və bu barədə məlumatları real vaxt rejimində vahid məlumat bazasına ötürür. Alıcı ticarət festivalı dövründə aldığı mallar üzrə ödənilmiş ƏDV-nin qaytarılması məqsədilə müəyyən olunmuş yerlərdə yaradılan xüsusi köşkə yaxınlaşaraq aldığı malların elektron vergi hesab-fakturasını vergi orqanının köşkdə çalışan əməkdaşına təqdim edir. Məlumatlar vahid məlumat bazasında yoxlanıldıqdan sonra avtomatik olaraq risk qiymətləndirməsi aparılır və onun nəticələri əsasında vergi orqanının əməkdaşı tərəfindən mallara baxılmalı olub-olmadığı müəyyən edilir. Yoxlamanın nəticələrinə uyğun olaraq qaytarılacaq ƏDV məbləği barədə təsdiq qeydi aparılır, sənəd möhürlənib alıcıya təqdim olunur və bu barədə məlumat real vaxt rejimində müvəkkil banka ötürülür. Müvəkkil bank isə vergi orqanı tərəfindən möhürlə təsdiq olunmuş e-VHF-yə əsasən qaytarılmalı olan ƏDV məbləğini alıcının istəyinə uyğun olaraq, elə həmin gün nağd qaydada və ya 10 iş günündən gec olmayaraq milli valyutada (əcnəbilərə münasibətdə milli və ya xarici valyutada) alıcının bank kartına (və ya hesabına) köçürmə qaydasında qaytarır.

Bildirilib ki, «Tax free» sistemində olduğu kimi, burada da bir sıra mallar var ki, onlara görə tutulmuş ƏDV qaytarılmır. Buraya aksizli mallar, ərzaq məhsulları, dərman preparatları və tibbi ləvazimatlar, ölkə daxilində satışı ƏDV-dən azad edilən mallar, çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlar, külçə şəklində qiymətli metallar, nəqliyyat vasitələri və onların ehtiyat hissələri aiddir. Ticarət festivalları dövründə ƏDV-nin qaytarılması yalnız bir elektron vergi hesabfakturası üzrə malların dəyəri (ƏDV ilə birlikdə) 100 manatdan çox olduğu hallarda təmin edilir.

Ə.Məmmədovun sözlərinə görə, ticarət festivalları dövründə ƏDV-nin qaytarılması ilə «Tax free» sisteminin əsas fərqi bundadır ki, ticarət festivallarında alıcıya fərq qoyulmur, «Tax free» sistemində isə ƏDV-nin qaytarılması yalnız əcnəbi turistlərə şamil edilir. Daha bir fərq də budur ki, «Tax free» sistemində 300 manatdan artıq alınmış mallar üzrə ƏDV-nin qaytarılması nəzərdə tutulurdusa, ticarət festivalları zamanı bu hədd daha aşağıdır - bir e-VHF üzrə alınan malların dəyəri ƏDV ilə birlikdə 100 manatdan çox olmalıdır. «Tax free» sistemində alıcı malı ölkə ərazisindən çıxardıqdan sonra ən geci 90 gün ərzində ƏDV geri qaytarılır, ticarət festivallarında isə belə məhdudiyyət yoxdur - mal alındığı gün ərzində ƏDV nağd qaydada və ya sonrakı 10 gün ərzində nağdsız qaydada geri qaytarılır. «Tax free» sistemində malların yoxlanılması və ƏDV-nin qaytarılması gömrük sərhəd-buraxılış məntəqələrində, ticarət festivallarında isə bilavasitə ticarət məkanlarında yaradılan xüsusi köşklərdə həyata keçirilir.

Ticarət festivalları dövründə festival iştirakçısı olan hər bir ticarət obyektindən mal almış istənilən şəxs ona lazım olan bir çox malları daha ucuz qiymətə əldə edə biləcək, bu isə öz növbəsində ticarət dövriyyəsinin artmasına səbəb olacaqdır.

## Vergilər Nazirliyi ƏDV-nin qaytarılması işlərini təşkil edir, müvafiq proqram təminatının və vahid məlumat bazasının yaradılmasını və idarə olunmasını təmin edir



# Vahid platformanın yaradılması müasir çağırışların tələbidir

## Aprelin 8-də Vergilər Nazirliyinin Şamaxıdakı Tədris Mərkəzində «I Milli Mühasiblər Forumu» keçirilib

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının və Vergilər Nazirliyinin birgə təşkilatçılığı, Azərbaycan Auditorlar Palatası, Maliyyə Nazirliyi və Gənc Mühasiblər Birliyinin dəstəyi ilə keçirilən tədbirdə ölkəmizdə mühasibatlığın yeni çağırışlara uyğun formalaşdırılması və yaradılan hüquqi baza, kadr hazırlığı, milli mühasibatlıq sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində aparılan islahatlar, mühasibat uçotu sisteminin elektronlaşdırılması və İKT-nin tətbiqi ilə bağlı çıxışlar dinlənilmiş, müzakirələr aparılmışdır. Forumda yerli və beynəlxalq audit və məsləhətçi şirkətləri, beynəlxalq maliyyə institutları, yerli dövlət qurumları və maliyyə təşkilatları, regional peşəkar mühasibatlıq qurumları, özəl şirkətlərin mühasibləri, habelə universitet və media nümayəndələri iştirak etmişlər.




*Vergilər Nazirliyi bütün qurumlarla, o cümlədən ictimai təşkilatlarla səmərəli əməkdaşlığa böyük önəm verir, bütövlükdə iqtisadiyyatın inkişafı ilə bağlı açıq dialoqa daim hazır olduğunu nümayiş etdirir*

Tədbirin açılış mərasimində çıxış edən **Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov** bildirmişdir ki, Forum Azərbaycanın mühasibat və maliyyə sisteminin əsas tərkib hissəsi kimi maliyyə hərəkətlərinin optimallaşdırılması, maliyyə nəzarəti, düzgün uçotun qurulmasında da mühüm rol oynayır. Ölkəmizin milli mühasibatlığının beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı təkmil hüquqi baza yaradılsa da, bəzi təşkilatlarda və təsərrüfat subyektlərində mühasibatlığın müasir meyarlara tam uyğunlaşdırılmasında problemlər qalmaqdadır. Bu baxımdan, təşkilatlar arasında mühasiblərin birgə əməkdaşlığının qurulması, yeni uçot və hesabat formaları barədə bilik və təcrübələrin qarşılıqlı mübadiləsi olduqca faydalıdır.

Qeyd olunmuşdur ki, hər bir mühasibin sahibkar kimi vergi ilə bağlı öhdəlikləri və məsuliyyəti vardır. 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə dəyişikliklərdə sahibkarlıq sahəsində qarşıya yeni tələblər qoyulmuş, sahibkarlıq sektorunda uçot sisteminin düzgün qurulması, vergilərin hesablanması və büdcəyə ödənilməsinin təmin olunması mühasibatlıq işinin yeni meyarlara uyğunlaşdırılmasını zəruri edir. V.Zeynalov bildirmişdir ki, mühasiblərin bir araya gələrək müasir iqtisadi çağırışlara uyğun inkişaf tendensiyalarını birgə müzakirə etmələri, yeni təkliflərlə çıxış etmələri təqdirəlayiq haldır.

**Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəis müavini Mirəli Kazımov** çıxışında bildirmişdir ki,Vergilər Nazirliyi bütün qurumlarla, o cümlədən ictimai təşkilatlarla səmərəli əməkdaşlığa böyük önəm verir, davamlı olaraq keçirdiyi konfrans və forumlarda irəli sürülən bütün yeni təşəbbüsləri dəstəkləyir, bütövlükdə iqtisadiyyatın inkişafı ilə bağlı açıq dialoqa daim hazır olduğunu nümayiş etdirir. Bugünkü tədbir də mühasibatlıq sisteminin tam şəffaflaşmasında, biznes dairələrinin öz işini daha nizamlı şəkildə qurmasında və üzərinə düşən öhdəliklərin və vəzifələrin yerinə yetirməsində, vergi uçotunun müasir tələblərə uyğun aparılmasında əhəmiyyətli rol oynayacaq.

### Mühasibatlığın müasir iqtisadi sistemə uyğunlaşdırılması zamanın tələbidir

Forumun birinci hissəsində mühasibat uçotu sahəsində mövcud problemlər və onların həlli yolları mövzusunda çıxışlar dinlənilmişdir. **Azərbaycan Dövlət İqtisad Universitetinin «Mühasibat uçotu və audit» kafedrasının müdiri Sifariz Səbzəliyev, Maliyyə Nazirliyinin Uçotun təşkili siyasəti şöbəsinin müdiri Firuzə Abdullayeva, «Accouting and Financial Advisory» firmasının rəhbəri Davud Məmmədov, İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin vitse-prezidenti Radi Fətullayev və Gənc Mühasiblər Birliyinin sədri Solmaz Əliyeva**nın nitqlərində toxunulan əsas məsələ mühasibat uçotu sistemlərinin hüquqi tənzimlənməsi və uçot siyasətinin təkmilləşdirilməsi, mühasibatlığın müasir iqtisadi sistemə uyğunlaşdırılması və bu sahədə meydana çıxan amillərin aradan qaldırılmasından ibarət olmuşdur. Qeyd edilmişdir ki, uçot iqtisadiyyatın bütün sahələri üzrə müxtəlif fəaliyyət növlərini bir-birinə bağlayan zəncirdir. Milli mühasibat sistemlərinin vahid şəkildə uyğunlaşdırılması təsərrüfat subyektlərinin maliyyə hesabatlarının aydın, şəffaf olması və reallığı əks etdirməsi baxımından olduqca vacibdir. Buna görə də tətbiq olunan mühasibat uçotunun milli sistemlərinin təsnifatı, uçotun aparılması metodlarının təhlili və bu sahədə birgə yanaşmalar vacibdir.

Çıxışlarda büdcədən maliyyələşən təşkilatların uçot və hesabatı ilə bağlı mövcud çətinliklər, kiçik və orta şirkətlərdə mühasibatlığın üzləşdiyi problemlər və onların həlli yolları, ictimai təşkilatlarda və QHT-lərdə milli mühasibat uçotu standartlarının təkmilləşdirilməsi, kommersiya təşkilatları üçün təklif olunan yeni hesabat və maliyyə hesabatı formalarının tətbiqinə də toxunulmuşdur.

*Milli mühasibat sistemlərinin vahid şəkildə uyğunlaşdırılması təsərrüfat subyektlərinin maliyyə hesabatlarının aydın, şəffaf olması və reallığı əks etdirməsi baxımından olduqca vacibdir*

### Uçot sisteminin şəffaflaşdırılması vergidən yayınma hallarının qarşısını alır

Forumun ikinci hissəsində vergi qanunvericiliyinə edilmiş son dəyişikliklərdə maliyyə və vergi uçotuna dair müddəalar barədə müzakirələr aparılmışdır. Bu mövzuda təqdimatla çıxış edən **Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktorunun müavini Nicat İmanov** bildirmişdir ki, 2017-ci il yanvarın 1-dən Vergi Məcəlləsində həm həcm, həm də mahiyyət baxımından ciddi dəyişikliklər edilmişdir. Son dəyişikliklərin əsas məqsədi və hədəfi kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimad səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, pul dövriyyəsinin tənzimlənməsi, bankların likvidliyinin və bilavasitə vergi mühitinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, ixracın stimullaşdırılması, dürüst və şəffaf uçotun qurulmasıdır.

Qeyd olunmuşdir ki, Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərdə uçot sisteminin şəffaflaşdırılmasına dair mühüm məsələlər öz əksini tapmışdır. Uçot sisteminin şəffaflaşdırılması ilə bağlı dəyişikliklər iqtisadi fəaliyyət sahələri üzrə vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması qaydalarının müəyyən edilməsi, malların alğı-satqı prosesində hərəkət zənciri boyu sənədləşmənin aparılması, vergidən yayınma hallarının qarşısının alınması məsələlərini əhatə edir. Məcəlləyə edilmiş mühüm dəyişikliklərdən biri sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin təqdim edilməsi zamanı elektron qaimə-fakturanın təqdim olunmasıdır. Artıq ƏDV ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə sahəsində çalışan şəxslər üçün bu tələb 2017-ci il aprelin 1-dən qüvvəyə minmişdir. Digər vergi ödəyiciləri üçün isə bu dəyişiklik 2018-ci ilin yanvarından qüvvəyə minəcək. Vergi Məcəlləsinə edilmiş bu dəyişikliklər sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşdirilməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin olunmasına xidmət edəcək.

### Sahibkarlar öz fəaliyyətlərində Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişiklikləri nəzərə almalıdırlar

Bu mövzuda çıxış edən «**SM» konsaltinq şirkətinin direktoru Emin Səttarov və «Professional mühasib» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis Mehdi Babayev** bildirmişlər ki, Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər bütün sahibkarlıq subyektlərini vergi və mühasibat uçotunda bu dəyişiklikləri nəzərə almalarını tələb edir. Uçotda aparılmalı olan əsas dəyişiklik vergilərin hesablanması qaydasının dəyişdirilməsi ilə əlaqədardır ki, bu da mənfəətin və vergilərin hesablanmasında düzəlişlərə səbəb olur. Hazırda kiçik və orta sahibkarlıq subyektlərində mühasibat uçotu tamamilə vergi öhdəliklərinin hesablanmasına əsaslanan uçot əsasında aparılır, bu isə təsisçilərə lazım olan maliyyə informasiyası tələblərinə cavab vermir. Çünki bəzi təsərrüfat əməliyyatlarının uçotu vergilərin hesablanması məqsədilə aparıldığına görə, bu uçot mühasibat standartlarına uyğun gəlmir. Vergi orqanına təqdim olunan bəyannamə göstəricilərində uyğunsuzluq yaradan amillərdən biri də fərqli uçotun tələblərinə əməl olunmamasıdır.

Çıxışlarda qeyd olunan məsələlərin qanunvericilikdə növbəti dəyişikliklər zamanı nəzərə alınması təklif edilmişdir. Mühasibat uçotu zamanı yalnız mühasibat standartlarının nəzərə alınması; maliyyə hesabatlarında təqdim olunan informasiyaların maksimum qiymətləndirilməsi; uçot zamanı vergi qanunvericiliyinin tələblərinin yalnız vergilərin hesablanması məqsədilə həyata keçirilməsi və iki uçot arasındakı fərqlərin ayrıca hesabatlarda nəzərə alınması; sadələşdirilmiş və mənfət vergisi bəyannamələrinin 1№-li Əlavəsində əlavə sətirlərin nəzərə alınması və göstəricilərin maksimum mühasibat standartlarının tələblərinə uyğunlaşdırılması və uyğunsuzluqların həll formasının dəyişdirilməsi barədə təkliflər də iştirakçıların diqqətinə çatdırılmışdır.

### Şəffaf mühasibatlığı təmin etmək üçün peşəkar mühasiblərə ehtiyac var

Forumun üçüncü hissəsində mühasibatlıq sahəsində təhsil və sertifikatlaşdırma mövzusunda çıxışlar olmuşdur. **Maliyyə Nazirliyinin Maliyyə Tədris Mərkəzinin şöbə müdiri Gülşən Orucova, «PWC Azərbaycan» şirkətinin əməkdaşı Dmitri Petko, Bakı Mühəndislik Universitetinin kafedra müdiri Firudin Sultanov**un çıxışlarında əsas diqqət mühasibatlığın tədrisində müasir yanaşmalar və yeni tədris metodları, mühasibatlıq maarifçiliyi, milli sertifikatlaşdırma sisteminin formalaşdırılmasında dövlət siyasəti, özəl peşəkar təlimin uçotun inkişafında rolu, Azərbaycanda maliyyə uçotunun beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına yönəldilmişdir. Ümumi qənaət ondan ibarət olmuşdur ki, rəqabətli iqtisadiyyatda şəffaf mühasibatlığı və maliyyə hesabatlılığını təmin etmək üçün peşəkar mühasiblərə ciddi ehtiyac var. Çünki hazırda müəssisələrdə mühasibatlıq uçotu daha çox vergi hesabatlılığı üzərində qurulub. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində və digər milli proqramlarda mühasibatlıqda təhsilin keyfiyyətinin yüksəldilməsi və əmək bazarının tələblərinə uyğunlaşdırılması ilə bağlı prioritetlər nəzərdə tutulub. O da diqqətə çatdırılmışdır ki, Azərbaycanda uçot sahəsində 15 özəl təlim təşkilatı fəaliyyət göstərir. Bu şirkətlər tərəfindən təklif olunan təlimlər mövcud rəqabət mühitini artırır, uçotun təkmilləşdirilməsinə səbəb olur, beynəlxalq təcrübənin ölkəmizdə tətbiqinə öz töhfəsini verir. Uçotu olmayan şirkətlərin öz strategiyalarını və biznesin səmərəliliyini müəyyənləşdirməsi çətinlik yaradır, onlar tez-tez likvidlik problemləri ilə üzləşirlər, gəlir və xərclərini proqnozlaşdıra bilmirlər. Uçotun avtomatlaşdırılması şəffaflığa və keyfiyyətə də mühüm təsir göstərir. Təklif olunmuşdur ki, ayrı-ayrı təhsil pillələri və növləri üzrə maliyyə-mühasibatlıq tədrisinin inkişafı strategiyası hazırlansın, buraxılış sənədləri tanınsın və ölçülmə mexanizmləri formalaşdırılsın.

### Mühasibatlığın elektronlaşdırılması uçotun düzgün aparılmasına şərait yaradır

Forumun dördüncü hissəsində mühasibatlığın inkişafında İKT-nin rolu, beynəlxalq və milli proqramların qarşılıqlı əlaqəsi mövzusunda müzakirələr aparılmışdır. Bu mövzuda çıxış edən **«Sinam» şirkətinin direktoru Əbülfət Rəhmanov, «Azərbaycan Sənaye Sığorta» ASC-nin maliyyə məsələləri üzrə müşaviri Rəşad Məmmədov, «Azərfon» şirkətinin mühasibi Elnur Osmanov, «Microfort MVP» layihəsinin rəhbəri Aydın Əliyev** müəssisələrin resurslarının idarə edilməsində və milli mühasibatlığın qurulmasında innovativ yanaşma, mühasibatlığın elektronlaşdırılması, mühasibatlığın təşkilində İKT-nin rolu, internet resursları və mühasibat proqramlarının hazırlanması barədə fikirlərini bölüşmüşlər. Bildirilmişdir ki, maliyyə və mühasibat uçotu hesabatlarının Milli Mühasibat Uçotu Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında aparılması, prosedur və hesabatların qanunvericiliyə tam uyğunluğu, Vergilər Nazirliyi, DSMF və Xəzinədarlıq İdarəsi sistemləri ilə inteqrasiya, eləcə də başqa təşkilatların informasiya sistemi ilə inteqrasiya amilləri mühasibatlıqda innovativ və müasir İKT modullarını tətbiq etməyə imkan verir. Azərbaycanda uçot sahəsində istifadə edilən proqramlar mövcuddur, perspektivdə isə mühasibat uçotunda avtomatlaşdırmanın yeni modellərinin tətbiqi zərurəti meydana çıxmışdır. Ən yaxşı innovasiya onlayn-mühasibatlıq və bulud texnologiyaların istifadəsi ilə mühasibat uçotu sisteminin təşkil edilməsidir.

Geniş müzakirələr və təkliflərin irəli sürülməsi ilə davam etdirilən tədbirin sonunda Milli Mühasiblər Forumunun yaradılması haqqında qərar qəbul olunmuşdur.

*Tədbir iştirakçılarının fikirlərindən də göründüyü kimi, bu cür forumlar vergi, audit, maliyyə, gömrük və digər sahələrdə aparılan islahatların daha geniş və dərindən müzakirəsi baxımından açıq platforma rolunu oynayır, dövlət-biznes və ictimai qurumlar arasında səmərəli əməkdaşlığa töhfə verir:*

***Elyar Məmmədov, «Azəraudit» konsaltinq şirkəti:***

«Vergilər Nazirliyinin mühasibləri bir araya gətirməsi təşəbbüsünə yüksək dəyər verirəm. Ölkənin iqtisadi siyasətində mühüm rol oynayan milli mühasibatlıq sahəsində ötən dövrlərdə xeyli təkmilləşmələr aparılsa da, müxtəlif sahələrdə hələ də müəyyən problemlər mövcuddur, xüsusən müasir elektron mühasibatlığın tətbiqi üçün görüləsi işlər kifayət qədərdir. Burada dövlət qurumları ilə yanaşı, peşəkar mühasiblərin də üzərinə məsuliyyət düşür. Bu cür tədbirlər qeyd olunan sahədə vahid platformanın yaradılmasına xidmət edir».

***Əsgər Məmmədov, vergi məsləhətçisi:***

«Təsərrüfat subyektləri və dövlət arasındakı iqtisadi münasibətləri tənzimləyən əsas alətlərdən biri vergi sistemidir və müasir vergi siyasəti bazar iqtisadiyyatının əlverişli inkişaf tələblərinə cavab verir. Hazırda Azərbaycanda biznesin inkişafı üçün hərtərəfli şərait yaradılıb, vergi yükü azaldılıb. Bu baxımdan, bütün vergi ödəyiciləri, sahibkarlıq subyektləri dürüst və şəffaf vergi uçotunu qurmağa borcludurlar. Şəffaf uçot onları qarşılaşa biləcəkləri bütün çətinliklərdən qoruyur. Biznes sahəsi ilə sıx təmasda olan şəxs kimi, təsərrüfat subyektlərinə mühasibatlığı, uçotu dürüst qurmağı tövsiyə edirəm».

***Rəşad Əliyev: «Value and Sources» MMC:***

«Bu gün mühasibatlıqda yeni sistemlərin tətbiqi ilə yanaşı, müasir tələblərə uyğun mütəxəssis hazırlığı ciddi bir problem kimi qarşıda durur. Bu problemin müzakirəsi və həlli yollarının araşdırılması məqsədilə keçirilən bütün xoşniyyətli tədbirləri alqışlayıram. Vergilər Nazirliyinin bu innovativ yanaşması mühasiblərin qarşılıqlı faydalı işbirliyi baxımından yüksək qiymətləndirilməlidir».

***İlkin Hüseynov, «Azərinşaat» MMC:***

«Forumda səsləndirilən fikirlər, aparılan müzakirələr və irəli sürülən təkliflər tədbirin çox səmərəli keçdiyini göstərir. Bu gün qaldırılan məsələlərin, qeyd edilən tövsiyə və təkliflərin mühasiblərin işində faydalı olacağına inanıram. Milli Mühasiblər Forumu mühasiblər arasında daha sıx əməkdaşlıq sayəsində ölkəmizdə bu sahənin inkişafına mühüm töhfə verə bilər».

*Hazırladı:* **Elbrus CƏFƏRLİ**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Hüquqi şəxsin sərnişindaşıma fəaliyyətinə görə vergi öhdəliyi

***Hüquqi şəxs ölkə daxilində özünə məxsus və fiziki şəxsdən icarəyə götürülmüş avtonəqliyyat vasitələri ilə sərnişindaşıma fəaliyyətini həyata keçirir. Daşıma fəaliyyətinə və icarəyə götürülmüş nəqliyyat vasitələrinə görə hansı vergi öhdəlikləri yaranır?***

Vergi Məcəlləsinin (VM) 124.1-ci maddəsinin müddəalarına görə, daşınan və daşınmaz əmlak üçün icarə haqqından gəlir bu Məcəllənin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edildikdə ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur.

Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və yaxud həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsilə həyata keçirən şəxslər VM-in 218.1-ci maddəsinin müddəalarından asılı olmayaraq, sadələşdirilmiş verginin ödəyiciləridir (VM, maddə 218.4.1).

VM-in 221.4.1-ci maddəsində göstərilir ki, sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyicisinin hər bir avtomobil nəqliyyatı vasitəsi üçün sadələşdirilmiş vergi bu Məcəllənin 220.5-ci maddəsində göstərilən sadələşdirilmiş verginin tətbiq edildiyi ölçü vahidini həmin maddədə qeyd olunan sadələşdirilmiş verginin aylıq məbləğinə, habelə VM-in 220.6-cı maddəsində göstərilən əmsallara vurularaq hesablanır və dövlət büdcəsinə ödənilir.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün müvafiq icra hakimiyyəti orqanından təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq növbəti ay, rüb, yarımil və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» almalıdırlar (VM, maddə 221.4.7).

**Qeyd olunanlara əsasən:**

Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində sərnişindaşımanı həyata keçirən müəssisə sadələşdirilmiş verginin ödəyicisi kimi fəaliyyət göstərir və bu fəaliyyətə görə vergi orqanına bəyannamə təqdim etmir. Bu zaman sərnişindaşıma fəaliyyəti göstərən müəssisə hər bir nəqliyyat vasitəsi üçün «Fərqlənmə nişanı» almalıdır.

Bunlarla yanaşı, fiziki şəxslərdən icarəyə götürülmüş avtonəqliyyat vasitələrinə görə hüquqi şəxs tərəfindən aparılan ödənişlərdən ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutularaq dövlət büdcəsinə ödənilməli və ödəmə mənbəyində tutulan verginin bəyannaməsi vergi orqanına təqdim edilməlidir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

# Könüllü əməletmə şəffaf xidmətdən qaynaqlanır

«2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Prezident sərəncamı vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması məqsədilə vergi sistemində islahatların davam etdirilməsini, ölkədə könüllü əməletmə səviyyəsinin yüksəldilməsinə nail olunmasını nəzərdə tutur.

Vergi sisteminin əsas subyektlərindən olan vergi ödəyicisi və vergi orqanı arasında qarşılıqlı etimada və əməkdaşlığa söykənən münasibətlərin formalaşması vergilərin məcburi ödənilməsindən könüllü ödənilməsinə keçidin əsas şərtlərindən biri hesab olunur. Könüllü əməletmə səviyyəsinin artırılması isə ilk növbədə vergi ödəyicilərinə geniş spektrli xidmətlərin formalaşdırılması, vergilərin hesablanması və ödənilməsi sisteminin sadələşdirilməsi, vergi ödəyiciləri və vergi orqanları arasında əlaqələrin daha da təkmilləşdirilməsi ilə bilavasitə bağlıdır.

Son illər Vergilər Nazirliyi könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirib. Hazırda vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin sayı 63-ə çatdırılıb, vergi orqanlarına göndərilən bəyannamələrin 90%-dən çoxu elektron formada təqdim olunur. Vergi bəyannamələrinin könüllü təqdim edilməsi göstəriciləri hər il daha da yaxşılaşır və müxtəlif vergilərdən asılı olaraq 75-85 faiz arasında dəyişir.

Vergilər Nazirliyinin könüllü əməletmə səviyyəsinin artırılması yönündə həyata keçirdiyi mühüm tədbirlərdən biri də vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin partnyorluq müstəvisinə keçirilməsidir. Bu sahədə son illər əhəmiyyətli işlər görülüb. Vergi orqanlarında «Şəffaf vergi partnyorluğu» strukturlarının yaradılması tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi və keyfiyyətcə yeni müstəviyə qaldırılması istiqamətində təzə bir yanaşmadır. Bu, ilk növbədə, intizamlı vergi ödəyiciləri ilə işin aparılmasını nəzərdə tutan bir sistemdir. Vergi öhdəliklərini vaxtında yerinə yetirən ödəyicilərə xüsusi münasibətin göstərilməsi beynəlxalq praktikada geniş yayılmış təcrübədir. İntizamlı vergi ödəyicilərinə xidmət vergi öhdəliyini yerinə yetirməyən, problemli ödəyicidən, əlbəttə ki, fərqlənməlidir.

Artıq 25 yanvar 2017-ci il tarixindən etibarən partnyor ödəyici statusunun alınması məqsədilə yerli vergi orqanları tərəfindən «Şəffaf vergi partnyoru» ekranına 681 vergi ödəyici barədə məlumatlar daxil edilmişdir. Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentindən aldığımız məlumata görə, şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyicisi statusuna malik olmaq istəyən ödəyicilərin müəyyən edilmiş meyarlara uyğunluğu araşdırılmış, 448 vergi ödəyicisinin elektron ünvanına «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» unikal koda malik olması barədə bildirişlər göndərilmişdir.

Vergi orqanları tərəfindən «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildirişlərin təqdimat mərasimləri keçirilmişdir. Tədbirlərdə partnyor ödəyici statusu almış vergi ödəyiciləri, vergi orqanlarının rəhbər vəzifəli şəxsləri, şəffaf partnyorluq strukturlarının əməkdaşları (o cümlədən kuratorlar), kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər. Görüş iştirakçılarına vergi sistemində aparılan son təşkilati-struktur islahatları, vergi qanunvericiliyində edilən dəyişikliklər, vergi orqanlarının və vergi ödəyicilərinin fəaliyyətlərində şəffaflıq prinsiplərinin təmin olunması, bu məqsədlə həyata keçirilən tədbirlər, şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərəcək vergi ödəyicilərinin seçim meyarları, partnyor ödəyicilərə ərazi məhdudiyyəti nəzərə alınmadan «Yaşıl dəhliz» prinsipi əsasında xidmətlərin göstərilməsi, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlərin təqdim edilməsi, partnyor ödəyicilərin təşəbbüsü ilə «dəyirmi masa», seminar və konfransların təşkili, xüsusi təlim proqramlarının hazırlanması və sahə təhkimçiliyi prinsipi ilə ünvanlı vergi xidmətləri barədə geniş məlumatlar verilmişdir.

**FƏXRİYYƏ**

# Azərbaycan Dövlət Aqrar Universitetində görüş

12 saylı Ərazi Vergilər Departamenti (ƏVD) əməkdaşlarının Azərbaycan Dövlət Aqrar Universitetində müəllim və tələbələrlə görüşü keçirilib. Görüş zamanı vergi qanunvericiliyinə edilmiş dəyişikliklər, bu dəyişikliklərin sahibkarların fəaliyyətinin stimullaşdırılmasında rolu, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi yükünün azaldılması, vergi inzibatçılığının, o cümlədən vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması, eləcə də vergi ödəyicilərinin qeydiyyatı, ticarət festivalları, «Tax free» sisteminin tətbiqi, nağdsız hesablaşmaların genişləndirilməsi və şəffaf vergi partnyorluğu haqqında ətraflı məlumat verilib.



Tədbirdə çıxış edən departamentin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin direktoru Rauf Mirzəyev ölkədə sahibkarlığın inkişafının dəstəklənməsi, özəl sektorun fəaliyyətinin genişləndirilməsi, iqtisadiyyata investisiya qoyuluşlarının stimullaşdırılması çərçivəsində vergi sistemində geniş islahatlar aparıldığını qeyd edib. Azərbaycanda müəyyən fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslərin sabit vergiyə cəlb olunmasının qaydaları açıqlanıb və bu addımın daha çox uçotun sadələşdirilməsi və həmin şəxslərdə inzibati vergi yükünün minimuma endirilməsi məqsədi daşıdığı vurğulanıb.

Görüş zamanı aparılan müzakirələrdə ticarət festivallarına xüsusi yer verilib. Bildirilib ki, bu festivallar Azərbaycanın turizm və iqtisadi potensialının yüksəldilməsinə xidmət edir və fiziki şəxslər tərəfindən ölkə ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması sisteminin tətbiqi ilə vergi inzibatçılığının daha da təkmilləşdirilməsi nəzərdə tutulur.

Sonda 12 saylı ƏVD-nin əməkdaşları qanunvericilikdə əksini tapmış yeni anlayışlar, yeni vergi bəyannamələri və hesabat formaları, vergi ödəyiciləri ilə partnyorluq münasibətlərinin dərinləşdirilməsi, şəffaf vergi xidmətlərinin göstərilməsi, uçot sisteminin şəffaflaşdırılması, «Nağdsız hesablaşmalar haqqında» Qanunun tələblərindən irəli gələn məsələlər və s. barədə suallara ətraflı izahlar veriblər.

# Bələdiyyə nümayəndələri üçün təlim

Vergilər Nazirliyinin Tədris Mərkəzi ilə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası arasında qarşılıqlı əməkdaşlıq çərçivəsində «Bələdiyyələrdə hüquqi maarifləndirmə işlərinin aparılması və metodiki köməklik göstərilməsi» mövzusunda iki günlük təlim keçirilmişdir. Təlimdə respublikanın müxtəlif regionlarından olan 48 bələdiyyə nümayəndəsi iştirak etmişdir.

Tədris Mərkəzinin rəisinin birinci müavini Ceyhun Mehdiyev bildirmişdir ki, Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli fərmanı ilə təsdiq olunmuş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında dövlət və yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqi və elektron xidmətlərin, həmçinin informasiya təhlükəsizliyi sahəsində fəaliyyətin genişləndirilməsi qarşıda duran prioritet vəzifələrdən biri kimi müəyyən edilmişdir. Məhz buna görə də bələdiyyələrlə bu cür tədbirlərin təşkil olunması böyük əhəmiyyət kəsb edir.

Təlimin ilk günündə bələdiyyə qulluğuna qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi və bələdiyyə qulluqçularının etik davranış qaydaları, bələdiyyə və bələdiyyə müəssisələrində kargüzarlığın təşkili, yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması, vergi və ödənişlərin hesablanması və ödənilməsi, habelə yerli (bələdiyyə) vergi və ödənişlərin elektron uçotu ilə əlaqədar mövzular araşdırılmış, «Yerli vergi və ödənişlər haqqında» Qanunun müddəaları, bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisinin, fiziki şəxslərin əmlak və torpaq vergilərinin, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin hesablanması və ödənilməsi qaydaları bələdiyyə nümayəndələrinin diqqətinə çatdırılmış və qeyd olunan məsələlər müzakirə edilmişdir.

Təlimin ikinci günündə bələdiyyələrin fəaliyyətində şəffaflığın artırılması və korrupsiya hüquqpozmalarının qarşısının alınması, Bələdiyyə Vergi İnformasiya Sisteminin (BVİS) altsistemləri və onların xüsusiyyətləri, BVİS-də yerli verginin ödəyicisi olan fiziki şəxslərin uçota alınması, bu sistemdə qeydiyyata alınmış vergi ödəyicilərinə yerli (bələdiyyə) vergilərin hesablanması və tədiyyə bildirişlərinin elektron qaydada hazırlanması və vergi daxilolmalarının BVİS-ə işlənməsi prosedurları iştirakçıların diqqətinə çatdırılmış, bu istiqamətdə geniş və səmərəli müzakirələr aparılmışdır.

Qeyd edək ki, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının baş məsləhətçisi Qalib Məmmədov və baş müəllimi Mətanət Əsgərova təlimçi qismində tədbirdə iştirak etmişlər. Müzakirə olunan məsələlər üzrə müzakirələrə Tədris Mərkəzinin əməkdaşları və «Cybernet» şirkətinin nümayəndələri də qatılmışlar.

# «Made in Azerbaijan» iqtisadiyyatın inkişafına dəstək verir

## *Yeni iqtisadi siyasətin əsas istiqamətləri sahibkarlığın inkişafı və genişləndirilməsidir*

Hazırda uğurla reallaşan islahatlardan biri «Made in Azerbaijan» brendi altında qeyri-neft məhsullarının istehsalının və xarici ölkələrə satılmasının təşviqidir. İqtisadçı-ekspert Pərviz Heydərovun sözlərinə görə, bu missiyanın davam etdirilməsi və son illərdə özəl bölmənin inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsi yerli məhsullar istehsalını artırıb, ixrac imkanlarını genişləndirib: «Sahibkarlığın inkişafı məqsədilə son dövrlərdə atılan addımlar, sənaye zonalarının, aqroparkların yaradılması ilə bağlı işlərin intensivləşdirilməsi və keçən ilin əvvəlindən başlanan yeni islahatlar yerli istehsalın artırılmasına, ixracın genişləndirilməsinə əlavə stimul yaradıb. Bütün bunların nəticəsi olaraq, getdikcə xarici iqtisadi fəaliyyət iştirakçılarının və ixrac olunan məhsul çeşidlərinin sayı artmaqdadır.

Yeri gəlmişkən, ölkədə istehsal olunan mallara dair vahid məlumat bazasının yaradılması haqda Prezident İlham Əliyevin 2016-cı ilin sentyabrın 21-də imzaladığı sərəncam daha böyük əhəmiyyət daşıyır. Bu sənəd ilə Azərbaycan mənşəli mallar haqda məlumatların təqdim edilməsi və onların daxili və xarici bazarlarda satışı üçün İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə (İİTKM) 3 ay müddətində əlverişli platforma yaratmaq tapşırığı verildi ki, bu da «Made in Azerbaijan» brendinin xarici bazarlarda təşviqi, realizəsi üçün olduqca vacib məsələ sayılırdı. İİTKM yeni yaradılmış qurum kimi ölkənin dayanıqlı iqtisadi inkişafını təmin etmək istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparmaq məqsədilə fəaliyyət göstərir. Qurum analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzun müddətli dövr üçün proqnozlar hazırlamaq, dövlət orqanları ilə qurumları həmin proqnozlarla təmin etmək, iqtisadiyyatın müxtəlif sahələrində ölkənin nailiyyətlərinin təbliği ilə məşğuldur. Onun missiyası iqtisadi islahatların əhatə dairəsini genişləndirmək və bu sahədə işlərin səmərəli əlaqələndirilməsini təmin etməkdir».

### Əsas məqsəd iqtisadi islahatların əhatə dairəsini genişləndirmək və bu sahədə işlərin səmərəli əlaqələndirilməsini təmin etməkdir

Ekspertin bildirdiyinə görə, qurum tərəfindən ölkədə istehsal olunan mallar və bunların istehsalçıları barədə məlumatları əks etdirən Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərən «azexport.az» adlı internet portalı Azərbaycan mallarını xaricdə sərgiləmək üçün dünyanın ən populyar elektron satış şəbəkələri ilə inteqrasiya olunmuşdur: «Portal dünyanın və Azərbaycanın aparıcı nəqliyyat-loqistika şirkətləri və ödəmə sistemləri ilə əlverişli şəkildə əlaqələndirilmişdir. Sayt mütəmadi olaraq yenilənməklə bərabər, istifadəyə rahat, əlçatan, təhlükəsiz, sürətli, əlverişli, hər yerdə və daimi xarakter daşımaqla, «Made in Azerbaijan» brendini alıcılara daha da yaxınlaşdırır».

Yeri gəlmişkən, «VISA», «MasterCard» və «American Express» kart sahiblərinin portal üzərindən tam təhlükəsiz və sürətli ödəmələr həyata keçirə bilmələri üçün bütün standartlar təmin olunmuşdur. P.Heydərovun sözlərinə görə, bu işdə «azexport.az» saytı bir növ tamamlayıcı xarakter daşıdı və fəaliyyətə başladıqdan cəmi 1 ay ərzində xeyli həcmdə sifarişlər əldə olunub və bu, prosesin «relsə düşdüyünü» göstərir: «Təkcə 2017-ci ilin yanvar ayı ərzində portala yerli məhsulların ixracı üçün müxtəlif ölkələrdən 4 milyon 630 min ABŞ dolları dəyərində sifariş daxil olub. Bu təkliflər Rusiya, Türkiyə, İraq, Bolqarıstan, Liviya, Moldova və digər ölkələrdən edilib. Məsələn, Bolqarıstan ümumi dəyəri 4 milyon ABŞ dolları məbləğində 4 min ton qırmızı mərci sifariş edib. Türkiyə, İraq, Liviya və Qana, Nigeriyadan ümumi həcmi 180 ton, dəyəri 350 min ABŞ dolları olan toyuq əti sifariş olunub. Moldovadan 20 min dollarlıq 20 min ədəd limonad, Fransadan isə nar şirələrinin distribütorluğu üçün sifariş gəlib. Bu sayt fəaliyyətə başladıqdan sonra Azərbaycan məhsullarının beynəlxalq platformalarda, o cümlədən «Alibaba.com»da təmsil olunma səviyyəsi fevral ayı da daxil olmaqla son 3 ay ərzində 50 dəfə artıb. Qonşu ölkələrlə müqayisədə beynəlxalq portallarda Azərbaycan məhsullarının təmsil olunması ilə bağlı vəziyyət sürətlə yaxşılaşır. Çünki «azexport.az» portalı yüzlərlə «Made in Azerbaijan» brendini qlobal və regional səviyyəli elektron ticarət portallarında sərgiləyir».

Tezliklə portalda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasında vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verən «Azərbaycan rəqəmsal ticarət qovşağı» («Digital Trade Hub of Azerbaijan») bölməsi də yaradılacaq.

Asiya İnkişaf Bankının «Asian Development Outlook 2017: Transcending the middle-income challenge» adlı hesabatında deyilir ki, «Made in Azerbaijan» brendinin inkişafı Azərbaycanda kənd təsərrüfatı sahəsinin 2017-ci ildə 3, 2018-ci ildə isə 4 faizlik artımını təmin etməyə kömək edəcək. Qeyd olunur ki, 2016-cı ildə Azərbaycanda kənd təsərrüfatı 2,6 faiz, o cümlədən heyvandarlıq 2,8 faiz artıb.

**F. İKRAMQIZI**

# Turizm sektoru iqtisadiyyatın ayrılmaz tərkib hissəsidir

**Aprelin 11-də «Excelsior» otelində Vergilər Nazirliyi yanında Bakı şəhəri Lokal Gəlirlər Departamenti və Azərbaycan Turizm Assosiasiyasının rəhbərliyinin ölkədə fəaliyyət göstərən turagentlər və otel biznesi ilə məşğul olan vergi ödəyiciləri ilə görüşü keçirilmişdir.**



Tədbirdə çıxış edən Lokal Gəlirlər Departamentinin baş direktoru Nəsimi Cəfərov bildirmişdir ki, ölkədə qeyri-neft sektorunun inkişafı ilə bağlı əsas prioritet istiqamətlərdən biri turizmdir: «Ölkə başçısı tərəfindən imzalanmış sərəncamlar, qəbul edilmiş qərar və qanunlar iqtisadi islahatları daha da dərinləşdirmişdir. Bu sahədə aparılan məqsədyönlü tədbirlər iqtisadiyyatın bir parçası olan turizmdən də yan keçməmişdir. Son illər ərzində təkcə paytaxt Bakıda deyil, respublikamızın regionlarında da onlarla turizm obyektləri istifadəyə verilmişdir. Onların arasında dünya brendləri hesab edilən bir çox turizm mərkəzləri və otellər də vardır. Bu sahədə görülən işlərin nəticəsidir ki, regionlarda iqtisadi artım əldə edilir, əhalinin məşğulluğu təmin olunur və ən əsası, ölkəmizin təbii gözəlliklərinin bütün dünyada tanıdılması ilə bağlı təbliğat öz bəhrəsini verməkdədir».

Qeyd olunmuşdur ki, turizm sektorunu təmsil edən vergi ödəyiciləri ilə keçirilən görüşlərin əsas məqsədi iqtisadiyyat və onun tərkib hissəsi olan vergi sistemində aparılan islahatların başlıca istiqamətlərini onlarla bölüşməkdir: «Hazırda respublikamızda dünya standartlarına cavab verən sivil vergi sisteminin formalaşdırılması həyata keçirilməkdədir. 2017-ci ilin əvvəlindən vergi sistemində aparılan struktur islahatları, qanunvericilikdə edilən əhəmiyyətli dəyişikliklər vergi orqanları ilə vergi ödəyiciləri arasında partnyor münasibətlərin daha üst səviyyəyə çatdırılmasına istiqamətlənmişdir. Yeni yanaşma tərzi büdcə proqnozunun icrası zamanı vergi orqanlarının daha çox vergi ödəyiciləri ilə partnyorluq münasibətləri çərçivəsində vergilərin könüllü ödənilməsi prinsipinə əsaslanmasındadır. Bu gün vergi orqanlarının ixtiyarında olan elektron imkanlar vergidən yayınma risklərini qısa müddətdə aşkar etməyə kömək edir. Vergi qanunvericiliyində və inzibatçılığında aparılan dəyişikliklər bu imkanları daha da genişləndirmişdir. Hesab edirəm ki, vergilərin könüllü bəyan edilməsi hər bir sahibkar üçün faydalıdır».

Baş direktor bildirmişdir ki, vergi sistemində aparılan əsas islahatlardan biri 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərdir: «Ümumilikdə Vergi Məcəlləsinə 201 sayda dəyişiklik edilmişdir. Bu dəyişikliklər vergi uçotunun təmin edilməsi, vergitutma bazasının genişləndirilməsi, vergi inzibatçılığının sadələşdirilməsi və nağdsız hesablaşmaların stimullaşdırılmasına xidmət edir. 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş «Nağdsız hesablaşmalar haqqında» Qanunun məqsədi şəffaflığın təmin edilməsi, istehlakçıların hüquqlarının qorunması, bank sisteminin inkişafı və nağdsız hesablaşmaların stimullaşdırılmasını əhatə edir. Bununla yanaşı olaraq, Vergilər Nazirliyinin strukturunda vergi ödəyicilərinə göstərilən xidmətlərin «Yaşıl dəhliz» prinsipi əsasında həyata keçirilməsi, şəffaf vergi uçotu aparan vergi ödəyicilərinə xüsusi yanaşmanın təmin edilməsi məqsədilə «Şəffaf vergi partnyorluğu strukturu» yaradılmışdır. Hazırda Bakı şəhəri Lokal Gəlirlər Departamentində 1 turagent və 3 otel şəffaf vergi partnyoru statusuna malikdir. Daha 2 turagent və 4 otelin bu statusa malik olması üçün onların göstəriciləri təhlil olunmaqdadır».

Qanunvericilikdə təsbit edildiyi kimi, turagentlərin ödəmələrini yalnız nağdsız qaydada həyata keçirməli olduğunu vurğulayan N.Cəfərov bu sahədə digər qanunvericilik aktlarında edilmiş dəyişiklikləri də görüş iştirakçılarının diqqətinə çatdırmışdır.

Aprelin 10-dan başlayaraq 1 ay müddətində Bakı şəhərində keçirilən ticarət festivalı zamanı xarici vətəndaşlarla yanaşı, yerli əhali tərəfindən də müəyyən olunmuş ticarət obyektlərindən alınmış mallara görə ƏDV-nin geri alınması barədə də görüş iştirakçılarına məlumat verən baş direktor bildirmişdir ki, nəticə etibarilə bu festivallar otel, turagent, iaşə və digər sahələrin inkişafına öz müsbət təsirini göstərəcək: «Vergi Məcəlləsinə edilmiş dəyişikliklərdən biri ticarət festivalı zamanı ƏDV-nin qaytarılması qaydalarını əhatə edir. Bildiyiniz kimi, 2016-cı ildən etibarən respublikamızda «Tax free» sisteminin tətbiqi ilə əlaqədar əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış, istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş ƏDV-nin qaytarılması qaydası qanunvericiliyə əlavə edilmişdir. ƏDV-nin bu formada qaytarılmasından dövlət büdcəsi müəyyən həcmdə daxilolmalardan məhrum olsa da, əsas məqsəd respublikamızda turizmin inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən turagentlərin və otellərin inkişafını dəstəkləməkdir».

Azərbaycan Turizm Assosiasiyasının İdarə Heyətinin sədri Nahid Bağırov isə çıxışında ölkəmizə xarici turistlərin cəlb olunması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat vermişdir. Bildirmişdir ki, turizm şirkətlərini, otelləri təmsil edən şəxslərin vergi orqanı əməkdaşları ilə birgə görüşü sosial dialoqun bariz nümunəsi kimi qiymətləndirilməlidir: «Bu baxımdan, bugünkü görüşü təqdirəlayiq hesab edirəm və fikrimcə, turizmin gələcək inkişafı istiqamətində belə görüşlər davamlı xarakter almalıdır».

Sonda Vergilər Nazirliyinin nümayəndələri turizm sektorunun təmsilçilərini maraqlandıran sualları cavablandırmışlar.

**Görüşlə bağlı turizm sektrorunun təmsilçilərinin təəssüratlarını öyrəndik:**

***Azərbaycan Turizm Assosiasiyası sədrinin müşaviri Müzəffər Ağakərimov:*** «Son illərdə ölkəmizdə turizmin inkişafı ilə bağlı xeyli iş görülüb, bu sahəyə dövlətin dəstəyi və qayğısı yüksək səviyyədədir. Çimərlik turizmi haqqında, turizm axınının sürətləndirilməsi, Turizm Şurasının yaradılması, yol xəritəsinin həyata keçirilməsi barədə ölkə başçısının sərəncamları bu sahənin inkişafı üçün mühüm sənədlərdir. Bildiyiniz kimi, bu günlərdə «Turizm haqqında» qanun layihəsi Milli Məclisin plenar iclasına təqdim olunub və yaxın vaxtlarda təsdiq edilməsi gözlənilir. Bütün bunlar dövlətin turizmin inkişafına göstərdiyi diqqətdən irəli gəlir. Vergilər Nazirliyinin nümayəndələri ilə keçirilən bu görüşdə turizm sektoru təmsilçilərini narahat edən suallara aydınlıq gətirildi, mövcud problemlərin həlli istiqamətində fikir mübadiləsi aparıldı. Fikrimcə, turizmin inkişafı məqsədilə bu cür görüşlər təkcə Vergilər Nazirliyi ilə yox, digər aidiyyəti dövlət qurumları ilə də keçirilməlidir».

***«Staybridge Suites Baku» otelinin baş meneceri Bəşir Hacıyev:*** «Vergilər Nazirliyinin əməkdaşları ilə turizm sektorunun təmsilçiləri arasında belə bir görüşün keçirilməsi çox təqdirəlayiqdir. Tədbir çərçivəsində nazirliyin nümayəndələrinə sual ünvanlamaq və qaneedici izahlar almaq imkanımız oldu. Biz, eyni zamanda, təklif və istəklərimizi də vergi orqanlarına çatdıra bildik. Hesab edirəm ki, görüşdə müzakirə edilən məsələlər gələcəkdə mütləq öz bəhrəsini verəcəkdir».

**Aytən NƏBİYEVA**

# Azərbaycan brendi dünyanın maraq dairəsində...

**Azərbaycanda dövlət xidmətlərinin təqdim edilməsinin yeni modeli hesab olunan «ASAN xidmət» mərkəzləri 2012-ci ildən etibarən vətəndaşların istifadəsinə verilib. Bu mərkəzlər dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edir, vətəndaşların əlavə xərclərini və vaxt itkisini azaldır, dövlət strukturlarına etimadı daha da gücləndirilir, şəffaflığı artırır, korrupsiyaya qarşı mübarizəni gücləndirir.**

Azərbaycanın «ASAN xidmət» modeli dünyanın bir çox ölkələri tərəfindən maraqla qarşılanır. Fəaliyyətdə olduğu dövr ərzində «ASAN xidmət» səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhvələrə görə «UĞUR 2013» mükafatı ilə təltif edilmiş, www.asan.gov.az rəsmi internet səhifəsi «NETTY 2013» Azərbaycan Milli İnternet Mükafatının dövlət saytı nominasiyasında birinci yerə layiq görülmüşdür. Sabirabad «ASAN xidmət» mərkəzi isə OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikat almışdır. «ASAN xidmət» mərkəzləri Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən 13 sahə üzrə keçirilən müsabiqənin «Dövlət xidmətlərinin həyata keçirilməsinin təşkilində təhlükəsiz əmək şəraitinin qurulması» sahəsi üzrə qalib olmuş, Birləşmiş Millətlər Təşkilatının «Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi» kateqoriyasında 1-ci yerə layiq görülmüşdür.




Fəaliyyətdə olduğu 1449 gün ərzində xidmət mərkəzlərinə edilən müraciətlərin ümumi sayı 14.621.832 olub. Bu müraciətlərin 13.612.485-i xidmət mərkəzlərində, 1.009.347-si səyyar xidmətlər vasitəsilə edilib. 2017-ci ilin birinci rübü ərzində edilən müraciətlərin sayı isə 1.396.175 təşkil edib.

Birinci rüb ərzində «ASAN xidmət» mərkəzləri üzrə xidmət qruplarına görə müraciətlərin 27,07%-ni funksional xidmətlər, 72,93%-ni əsas xidmətlər təşkil edib. «Səyyar ASAN» üzrə xidmət qruplarına görə müraciətlərin isə 19,09%-ni funksional, 80,91%-ni isə əsas xidmətlər təşkil edib. «ASAN xidmət» mərkəzləri üzrə müraciət tiplərinə görə müraciətlərin 17,81%-i sənəd qəbulu, 49,19%-i hazır sənəd, 27,79%-i isə informasiya ilə bağlı müraciətlər olub. «Səyyar ASAN» üzrə müraciətlərdən sənəd qəbulu 29,51%, hazır sənəd 46,03%, informasiya 21,64% təşkil edib. Bu dövr ərzində müraciət edənlərin 37,63%-ni qadınlar, 62,37%-ni isə kişilər təşkil edib.




Hazırda Bakıda 5, regionlarda isə 6 olmaqla, ümumilikdə 11 «ASAN xidmət» mərkəzi fəaliyyət göstərir. Bu il Quba və Mingəçevirdə də «ASAN xidmət» mərkəzlərinin istifaləyə veriləcəyi planlaşdırılır. Xidmət mərkəzlərində 10 dövlət qurumu, eləcə də bir sıra özəl müəssisə və şirkətlər tərəfindən ümumilikdə 230-a yaxın müxtəlif tipli xidmətlər göstərilir. Mərkəzlərdə Vergilər Nazirliyinin «Fiziki şəxsin vergi uçotuna alınması», «Yerli investisiyalı kommersiya hüquqi şəxslərinin dövlət qeydiyyatına alınması», «Xarici investisiyalı kommersiya hüquqi şəxslərinin dövlət qeydiyyatına alınması», «Xarici kommersiya hüquqi şəxslərinin nümayəndəliyi və ya filialının dövlət qeydiyyatına alınması» xidmətləri də həyata keçirilir. Qeyd edək ki, fiziki şəxsin vergi uçotuna alınması xidməti dövlət rüsumundan azaddır və Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, 2017-ci ildən başlayaraq vergi orqanı vergi ödəyicisinin uçota alınması ilə bağlı müraciəti müraciət daxil olduğu gündən sonrakı 1 gün ərzində icra etməlidir. Nəzərdə tutulmuş dəyişikliyin icrası məqsədilə Vergilər Nazirliyinin Xidmət mərkəzlərində və «ASAN» xidmət mərkəzlərində vergi orqanı əməkdaşlarının fəaliyyətinin təşkili ilə bağlı aparılmış dəyişikliklərə əsasən, fiziki şəxslərin uçota dayanma ərizələri istər «ASAN xidmət» mərkəzlərində, istərsə də Vergilər Nazirliyinin Xidmət mərkəzlərində qəbul edilərək emal olunur və ərizəni qəbul edən vergi əməkdaşı tərəfindən VÖEN şəhadətnaməsi çap olunub imzalandıqdan sonra müraciət edən şəxsə təqdim olunur.

**Aytən NƏBİYEVA**

# Vergilərə dair yeni Tvinninq layihəsi hazırlanıb

## *Transfer qiymətləndirmə ilə bağlı layihə həyata keçiriləcək*

**Avropa İttifaqı (Aİ) yaxın vaxtlarda Azərbaycanda yeni Tvinninq layihələrinin icrasına başlayacaq. Həmin layihələr vergi, maliyyə inzibatçılığı, ədliyyə, sosial sığorta, regional inkişaf və iqtisadi idarəetmə sahələrini əhatə edəcək. İki il müddətində icra olunacaq hər layihəyə Aİ tərəfindən təxminən 1,5 milyon avro vəsait ayrılması nəzərdə tutulur.**

İqtisadiyyat nazirinin müavini Sahil Babayev Azərbaycanda Aİ-nin Tvinninq layihələrinin tətbiqinin 10 illiyinə həsr olunmuş konfransda bildirib ki, İttifaq 2006-cı ildən icrasına başladığı Tvinninq yardım aləti çərçivəsində ölkəmizdə iqtisadiyyatın və sosial sahənin müxtəlif istiqamətləri üzrə əhəmiyyətli dəyişikliklərin inkişafına, Avropanın ən qabaqcıl meyarlarının və texnologiyalarının Azərbaycanda tətbiq olunmasına dəstək verib. Qeyd edilib ki, Aİ-nin 23 üzv dövləti ilə Azərbaycan arasında ikiqat vergitutmanın aradan qaldırılması, 18 dövlət ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalanıb, 14 dövlətlə hökumətlərarası komissiya, 2 dövlətlə işçi qrup fəaliyyət göstərir. Bu, Azərbaycan və Aİ arasında iqtisadi sahədə əlaqələrin möhkəmlənməsində, ölkəmizə yatırılan xarici investisiyaların artmasında mühüm rol oynayır.




Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Malena Mard isə bildirib ki, respublikamız Tvinninq layihələrinin sayına görə Cənubi Qafqazda liderdir. Bir sıra ölkələr Azərbaycanın bu sahədə tətbiq etdiyi təcrübəni öyrənməkdədir. Təşkilatla ölkəmiz arasında əlaqələrin inkişaf etdirilməsi üçün güclü və qarşılıqlı etimad mühitinin mövcud olduğunu xatırladan xanım M.Mard bu amilin Azərbaycanda Tvinninqlə yanaşı, TAIEX, SIQMA və SOCIEUX kimi yardım alətlərinin həyata keçiriləcəyini vurğulayıb.

Aİ ilə əməkdaşlıq çərçivəsində 2017-ci və qarşıdakı illərdə icra olunacaq 7 Tvinninq layihəsinin əsas istiqamətlərindən biri vergi sahəsində ən qabaqcıl Avropa meyarlarının tətbiqinin davam etdirilməsindən ibarətdir. «Transfer Pricing» adlanacaq bu layihə vergi ödəyiciləri tərəfindən xərclərin süni şəkildə artırılması (transfer qiymətləndirmə) hallarının aradan qaldırılması məqsədilə beynəlxalq təcrübənin tətbiqini nəzərdə tutur.

Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin Beynəlxalq əməkdaşlıq idarəsinin rəhbəri, BMT-nin Vergi məsələlərində beynəlxalq əməkdaşlıq üzrə Ekspertlər Komitəsinin üzvü Ülvi Yusifov bildirib ki, bu gün vergi orqanlarının vergidən yayınma ilə mübarizə strategiyasının əsas istiqamətlərindən biri transfer qiymətlərinə nəzarət mexanizmlərinin tətbiqi ilə bağlıdır və bu sahədə yeni mexanizmlərə ehtiyac var. Transfer qiymətləndirmə şirkətlərin xərclərini süni şəkildə artırmasının qarşısını almaq və şəffaflığı təmin etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Vergi sahəsində tətbiq olunan elektron audit və digər innovativ vasitələr də bu sahədə problemlərin həllində mühüm rol oynayır. Transfer qiymətlərinin tətbiqi ilə bağlı qanunvericilik və inzibatçılıq prosedurlarının məqsədi bu cür halların qarşısının alınması və bu yollarla vergidən yayındırılan məbləğlərin qanunvericiliyə müvafiq qaydada vergiyə cəlb edilməsini və bununla da vergi daxilolmalarının artımını təmin etməkdən ibarətdir.

Vergilər Nazirliyi tərəfindən hazırlanmış «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün «Strateji Plan»da transfer qiymətlərinin tənzimlənməsi sahəsində qanunvericilik bazasının və inzibati nəzarət mexanizmlərinin yaradılması» nəzərdə tutulub. Ötən müddət ərzində transfer qiymətləndirmə üzrə müxtəlif elmi seminarlar keçirilib, xarici ölkələrin mütəxəssislərinin iştirakı ilə bu sahədə beynəlxalq təcrübədə tətbiq olunan mexanizmlər müzakirə olunub, Avropa İttifaqının Tvinninq yardım aləti çərçivəsində müvafiq layihənin həyata keçirilməsi barədə razılıq əldə edilib.

**Elbrus CƏFƏRLİ**

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı

• **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixdən;**

• **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixdən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsi ilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edilkdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsi ilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

• birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,

• ikinci dəfə yol verdikdə **20 faizi**,

• üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

# Elektron qaimə-fakturanın hazırlanması

Vergi Məcəlləsinə edilmiş son əlavə və dəyişikliklərə əsasən, sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən 2017-ci il 1 aprel tarixindən, bütün digər vergi ödəyiciləri tərəfindən isə 2018-ci il 1 yanvar tarixindən etibarən elektron qaimə-faktura təqdim edilməlidir. Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə alınmış malların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

Vergi ödəyicilərinin elektron qaiməni sərbəst hazırlaya bilmələri üçün Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin «Aktual» bölməsində istifadəçi təlimatı yerləşdirilib. Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin hazırladığı təlimata əsasən, vergi ödəyiciləri e-qaiməni iki üsulla hazırlaya biləcəklər. Birinci üsul «Onlayn rejimdə» həyata keçirilir. Bunun üçün vergi ödəyicisi «ASAN imza»dan istifadə etməklə İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq və e-VHF» bölməsini seçib «e-qaimə» altbölməsinə daxil olmalı və «onlayn» rejimdə elektron qaimə-fakturanı tərtib edərək digər vergi ödəyicisinə təqdim etməlidir. İkinci üsul isə oflayn rejimdə həyata keçirilir və bu zaman vergi ödəyicisi elektron qaimə-fakturasını tərtib etmək üçün xüsusi proqram təminatının («Elektron Faktura Tərtibatı Proqramı ( eFP)» sonuncu versiyasını və digər zəruri proqramları İnternet Vergi İdarəsinin «e-Qaimə-faktura» bölməsinin «Lazımlı proqramlar» altbölməsindən öz kompüterinə yükləməlidir. Tələb olunan qaimə-fakturalar bu proqram vasitəsilə internetdən istifadə etmədən hazırlanacaq və paketlənəcək. Sonra ödəyici paket faylını «Asan DOC client» proqramı vasitəsilə imzalamalıdır (bu proqramı http://asanimza.az/category/asan-doc-az/ linkindən endirmək olar). Sonda gücləndirilmiş elektron imza vasitəsindən («ASAN imza») istifadə etməklə İnternet Vergi İdarəsinin «Onlayn kargüzarlıq və e-VHF» bölməsini seçib «Elektron qaimə» altbölməsinə daxil olmalı və imzalanmış «adoc» tipli faylı müvafiq menyunu seçməklə sistemə yükləməlidir. Yükləmə zamanı sistem tərəfindən elektron qaimə-fakturalara unikal seriya və nömrələr veriləcək və qarşı tərəfin elektron qutusuna göndəriləcək. Bundan sonra bütün digər əməliyyatlar onlayn rejimdə aparılacaq. Bu rejim əsasən iri vergi ödəyiciləri üçün nəzərdə tutulmuşdur və çox sayda elektron qaimə-fakturaları təqdim edən vergi ödəyiciləri tərəfindən istifadə edilməsi tövsiyə olunur.

Təlimatda vergi ödəyicilərinin yeni e-qaimə-fakturaların necə hazırlamalı və necə ləğv etməli olduqları ətraflı izah edilib. Bunun üçün satıcı vergi ödəyicisi «Yeni qaimə» düyməsini basmaqla e-qaimə-fakturanı hazırlayaraq qarşı tərəfə - alıcıya təqdim edir. Satıcı tərəfindən göndərilmiş e-qaimə-faktura alıcı vergi ödəyicisi tərəfindən təsdiq edilməlidir. Həmin e-qaimə-faktura alıcı vergi ödəyicisi tərəfindən 5 gün ərzində təsdiq edilməzsə, proqram təminatı tərəfindən avtomatik qaydada təsdiqlənəcək. İş axını zamanı təsdiqləmə və göndərmə əməliyyatları gücləndirilmiş elektron imza vasitəsilə təsdiqlənir. Sistem tərəfindən təsdiq edilən qaimə-faktura göndərildiyi tarixdə qəbul ediləcək. Satıcı tərəfindən göndərilən e-qaimə-faktura alan vergi ödəyicisi tərəfindən təsdiqlənərsə, həmin gün e-qaimə-fakturanın tarixi qəbul edilir. E-qaimədə məbləğlər milli valyutada göstərilməlidir.

E-qaimənin ləğv edilməsi üçün satıcı vergi ödəyicisi «Göndərdiklərim» qovluğundakı müvafiq e-qaimə-fakturanı taparaq üzərinə iki dəfə klik edir. Sonra açılan pəncərədə «Qaiməni ləğv et» düyməsi sıxılır və əməliyyatın təsdiqlənməsi tələb olunur. Bunun üçün ləğvetmə səbəbi daxil edilir və «Qəbul» düyməsi basılır. Sonda əməliyyat gücləndirilmiş elektron imza vasitəsilə təsdiqlənməlidir. Nəticədə e-qaimə-faktura ləğv ediləcək. Qaimə ləğv edildikdən sonra alıcı vergi ödəyicisinin «Elektron qaimə» bölməsinin «Gələnlər» qovluğundakı həmin qaimənin vəziyyəti «Ləğv olunub» kimi əks olunacaq.

Təlimatda dəqiqləşdirilmiş e-qaimənin göndərilməsi də izah edilib. E-qaimənin dəqiqləşdirilməsi - təqdim edildikdən sonra vergi tutulan dövriyyənin dəqiqləşdirilməsinə əsas verən hallar üzə çıxdığı zaman həyata keçirilir. Burada Vergi Məcəlləsinin 163-cü maddəsinin tələbləri nəzərə alınır: əməliyyat qismən ləğv edildikdə, o cümlədən mal qismən geri qaytarıldıqda, əməliyyatın xarakteri dəyişdikdə, qiymətlər aşağı düşdükdə və s. hallarda qiymətləndirmə bazasında dəyişikliyin baş verdiyi hesabat dövründə dəqiqləşdirmə aparılır. Dəqiqləşdirilmiş e-qaimə hazırlamaq üçün «Qaimə tipi» bölməsində «Dəqiqləşdirilmiş» sözünü qeyd etmək və dəqiqləşdirilən e-qaimənin seriya və nömrəsini daxil edib «Axtar» düyməsini basmaq lazımdır. Bu zaman qaimə üzrə məlumatlar ekrana çıxacaq. Müvafiq düzəlişlər edilərək təsdiqləndikdən sonra e-qaiməyə yeni seriya və nömrə veriləcək. Satıcı tərəfindən göndərilmiş dəqiqləşdirilmiş e-qaimə alıcı vergi ödəyicisi tərəfindən təsdiq edilməlidir. Əgər həmin e-qaimə alıcı vergi ödəyicisi tərəfindən ayın sonuna kimi təsdiq edilməzsə, həmin e-qaimə proqram təminatı tərəfindən silinəcək və dəqiqləşdirilməmiş sayılacaq.

Təlimatda e-qaimənin elektron vergi hesab-fakturasının (EVHF) necə hazırlanmalı olduğu da izahlı şəkildə göstərilib. Satıcı «Normal» və «EVHF ləğv olunub» olan e-qaimə-fakturalar üçün EVHF hazırlaya bilər. Bunun üçün o, «Göndərdiklərim» qovluğuna daxil olaraq müvafiq e-qaimə-fakturanı tapıb üzərinə 2 dəfə klik etməli və açılan pəncərənin aşağı hissəsində yerləşən «Qaimənin fakturasını hazırla» düyməsini sıxmalıdır. Nəticədə e-qaimə-faktura üçün EVHF hazırlanacaq və o, «Elektron EVHF» altsisteminin «Qaralama» qovluğuna göndəriləcək. İstifadəçi hazırlanmış həmin EVHF-ni imzalayıb göndərə bilər. Satıcı hazırladığı e-qaimə-fakturası üçün 5 gün ərzində vergi hesab-fakturasını hazırlamamışdırsa, o zaman sistem tərəfindən avtomatik EVHF hazırlanır və «Elektron EVHF» altsisteminin «Qaralama» qovluğuna göndərilir.

**Aytən NƏBİYEVA**

## 2017-ci ilin aprel ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə YADDAŞ

**2017-ci ilin mart ayına görə vergi ödəyiciləri tədiyəçisi olduğu**

• Əlavə dəyər vergisi bəyannaməsini,

• Aksiz bəyannaməsini,

• Yol vergisi bəyannaməsini,

• Mədən vergisi bəyannaməsini,

• Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsini,

• Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsini cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

• Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş vergi bəyannaməsini cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər *(vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir)*.

**2017-ci ilin 1-ci rübünə görə vergi ödəyiciləri tədiyəçisi olduğu**

• Sadələşdirilmiş verginin bəyannaməsini,

• Ödəmə mənbəyində tutulan vergi bəyannaməsini cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və rüb üzrə hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• Cari ilin 1-ci rübü üzrə **muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsini** (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ilin yanvar ayının 31-dən gec olmayaraq təqdim edirlər) cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli, mart ayı üzrə hesablanmış vergini isə həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Xüsusi notariusların gəlir vergisi bəyannaməsini** cari ilin aprel ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim etməli və mart ayı üzrə hesablanmış gəlir vergisini həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

• **Dövlət rüsumu haqqında hesabatı** cari ilin aprel ayının 20-dək vergi orqanına təqdim etməlidirlər (notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülür).

**Gəlir və mənfəət vergisi ödəyiciləri** cari ilin 1-ci rübü üzrə hesablanmış cari ödəmələrini aprel ayının 17-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi sizə tövsiyə edirik.**

# Vergi ödəyicilərinin uçotu ilə bağlı bankların məsuliyyəti

Bankların vergi ödəyicilərinin uçotu ilə bağlı vəzifələri Vergi Məcəlləsinin 35-ci maddəsində təsbit edilmişdir. Qanuna əsasən, dövlət qeydiyyatı vergi orqanları tərəfindən aparılan hüquqi şəxslər, habelə xarici kommersiya hüquqi şəxsinin nümayəndəlik və filialları dövlət qeydiyyatına alınması haqqında ərizə ilə birlikdə və ya qeydiyyata alındıqdan sonra istənilən vaxt, digər vergi ödəyiciləri isə uçota alınması haqqında şəhadətnaməni aldıqdan sonra bank idarəsində hesab açmaq üçün vergi orqanına ərizə verir. Vergi orqanı bu ərizə əsasında vergi ödəyicisinə 2 gündən gec olmayaraq şəhadətnamə-dublikat təqdim edir. Vergi ödəyicisinə verilən şəhadətnamə-dublikatların sayı məhdudlaşdırılmır və onların hər biri nömrələnir. Bank hesabının açılması məqsədilə şəhadətnamə-dublikat vergi ödəyicisinin büdcəyə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olmadıqda, bu maddədə müəyyən edilmiş müddətdə verilir. Şəhadətnamə-dublikatın alınması üçün vergi ödəyicisi tərəfindən verilən ərizənin və şəhadətnamə-dublikatın forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Vergi orqanı bu maddənin birinci abzasında nəzərdə tutulan şəhadətnamə-dublikatı vergi ödəyicisinə verdikdən sonra 1 gün müddətinə müvafiq icra hakimiyyəti orqanına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada məlumatı elektron və (və ya) kağız daşıyıcılar vasitəsilə göndərir.

Bank mütəxəssisi Yusif Abdullayevin şərhinə əsasən, şəhadətnamə-dublikatın mahiyyəti vergi orqanlarının vergi ödəyicilərinin hansı bankda hesabları olduğu haqda məlumatlı olmasından və ödənilməmiş vergi öhdəliyi yarananda həmin hesablarda olan aktivlərin hesabına ödənilməsini təmin etməkdir: «Vergi ödəyicisi vergi orqanlarının məlumatı olmayan bank hesabına malik ola bilməz. Ödənməmiş vergi öhdəliyi yarananda vergi ödəyicisinin hesabında vəsaitin olub-olmamasından asılı olmayaraq, vergi orqanı bütün banklardakı hesablara sərəncam qoyur. Sərəncam vaxtı çatmış və ödənilməmiş vergi öhdəliyi məbləğində hesaba qoyulmuş blokdur. Məsələn, tutaq ki, vergi ödəyicisinin 2000 manatlıq ödənilməmiş vergi borcu var. Bu zaman vergi orqanı hesaba 2000 manatlıq sərəncam göndərir. Müştərinin hesabında vəsait varsa, həmin sərəncama əsasən, vəsait vergilərə yönəldilir, yoxdursa, hesaba vəsait daxil olan anda həmin vəsait vergiyə yönəldiləcəkdir. Yəni hesabda olan vəsaitlər hesabına vergi öhdəliyi icra olunmayana qədər başqa əməliyyat aparıla bilməz (əməkhaqlarının ödənilməsindən başqa). Bank hesablarında vəsait olmadıqda belə, onlara sərəncam qoyulur və həmin hesabların hər hansı birinə vəsait daxil olduqda, ilk olaraq, vergi öhdəliyi icra olunur».

Bəzən sahibkarlarda vergi ödəyicisi bank hesabı açmaq üçün vergi orqanlarından şəhadətnamə-dublikat alırsa, bununla vergi orqanlarının onların bank hesabları üzrə bütün hərəkətlərini müşahidə etməsi kimi yanlış təəssürat yaranır: «Vergi orqanlarının bank sistemlərinə birbaşa çıxışı yoxdur. Vergi orqanları banklardan məhkəmə qərarları olmadan hüquqi və ya fiziki şəxs olan vergi ödəyicilərinin bank hesabları haqqında məlumat tələb edə bilər. Bank isə öz növbəsində bu məlumatı verməklə yanaşı, həm də hesabın sahibini məlumatlandırmalıdır». Y.Abdullayev onu da qeyd etdi ki, hazırda şəhadətnamə-dublikatlarla bağlı əməliyyatlar Vergilər Nazirliyi tərəfindən banklara təqdim olunmuş proqram təminatı vasitəsilə operativ şəkildə həyata keçirilir.

Vergi Məcəlləsinin 35.2.-ci maddəsinə əsasən, banklar hüquqi şəxslərə, onların filial və nümayəndəliklərinə, fərdi sahibkarlara yalnız onlar vergi orqanı tərəfindən verilən şəhadətnamə-dublikatı təqdim etdikdən sonra bank hesabı açırlar (qeyri-rezident üçün sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan hesabların açılması halları istisna olmaqla): «Həmin maddəyə görə, banklar hüquqi və fiziki şəxslərə hesab açdıqda və ya maliyyə xidmətləri göstərdikdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl olunmasını təmin etməlidirlər. Şəhadətnamə-dublikat alındığı tarixdən 10 gün müddətində hesabın açılması üçün istifadə olunmadıqda, qüvvədən düşmüş hesab edilir. Şəhadətnamə-dublikat iki hissədən ibarətdir: bir hissəsi vergi ödəyicisinin hesab açdığı bankda qalır, bildiriş adlanan digər hissəsi isə bank idarəsi tərəfindən müvafiq qeydlər aparıldıqdan sonra onu vermiş vergi orqanına göndərilir. Vergi orqanı isə bildirişi aldıqdan sonra burada göstərilən məlumatları vergi uçotu məlumatlarına daxil edir və 1 gün müddətinə həmin məlumatları müvafiq icra hakimiyyəti orqanına elektron və (və ya) kağız daşıyıcılar vasitəsilə göndərir».

Y.Abdullayevin sözlərinə görə, şəhadətnamə-dublikatla yalnız onda göstərilmiş bankda (bankın filialında) hesab açmaq olar: «Şəhadətnamə-dublikatın bildiriş hissəsi bank idarəsi tərəfindən 10 gün müddətində qaytarılmadıqda, vergi orqanı bunun səbəblərini vergi ödəyicisi və müvafiq bank idarəsi ilə dəqiqləşdirməlidir. Şəhadətnamə-dublikat 10 gün ərzində istifadə olunmadıqda, geri alınır və hesabın açılmaması barədə bankdan alınmış rəsmi məlumata əsasən, onun etibarsız olması haqqında vergi ödəyicisinin uçot məlumatlarında müvafiq qeydlər aparılır».

Belə bir sual ortaya çıxa bilər: bank vergi orqanları tərəfindən qoyulmuş sərəncamı icra etməzsə, məsuliyyəti kim daşıyır? Y.Abdullayev bu halda məsuliyyətin bankın üzərində olduğunu bildirir: «Əgər vergi ödəyicisinin hesabına vergi orqanları tərəfindən sərəncam qoyulubsa və bank qəsdən və yaxud bilməyərəkdən sərəncamı icra etmədən hesab üzrə başqa əməliyyat aparıbsa, bunun məsuliyyəti bankın üzərindədir. Buna görə bank ciddi maliyyə və inzibati sanksiyalara məruz qala bilər».

**Fəxriyyə İKRAMQIZI**

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Avstraliyanın vergi qanunvericiliyində dəyişikliklər olunacaq

Ölkə parlamentində kiçik və orta biznes üçün vergi yükünün azaldılması üzrə müvafiq müddəalar müzakirə edilmiş, müasir reallıqlar nəzərə alınmaqla vergi dərəcələrinin optimallaşdırılması barədə üçillik proqram qəbul olunmuşdur.

Nəzərdə tutulan dəyişikliklərdən biri budur ki, hər hansı şirkətin kiçik biznesə aid edilməsi üçün onun illik maksimal dövriyyəsinin həddi 2 milyon Avstraliya dollarından (1 AUD =1,29388 manat) 10 milyon dollara qaldırılmışdır. Korporativ verginin dərəcəsi 28,5%-dən 27,5%-ə endirilmişdir, 2025-ci ilə qədər isə bu dərəcənin 25%-dək aşağı salınacağı planlaşdırılır.

Avstraliyanın Baş naziri Malkolm Ternbull bildirmişdir ki, hökumət vergi qanunvericiliyini təkmilləşdirmişdir. Kiçik və orta biznes üçün vergilərin azaldılması 6,5 milyon vətəndaşın fəaliyyətini əhatə edir ki, bunlar da iqtisadi baxımdan fəal əhalinin yarısından çoxdur. Baş nazir korporativ verginin gələcəkdə də azaldılmasının nəzərdə tutulduğu barədə xəbəri bir daha təsdiq etmişdir.

# İsveçrədəki hesablarını gizlədən şəxslərin əmlakı müsadirə edilib

Niderlandda vergi ödəməkdən yayınmaya qarşı mübarizə tədbirləri çərçivəsində keçirilmiş polis reydlərindən sonra bəzi vətəndaşlardan qızıl külçələri, avtomobillər və qiymətli rəsm əsərləri müsadirə edilmişdir. Bundan əlavə, Maliyyə Nazirliyinin müstəntiqləri İsveçrədə qanundankənar bank hesabları aşkar etdikdən sonra bütün ölkə üzrə bank hesablarını dondurmuş, zərgərlik məmulatlarını götürmüşlər. Böyük Britaniya, Almaniya, Fransa və Avstraliyada, eləcə də Niderlandda prokurorluğun sanksiyası əsasında reydlər keçirilmişdir.

Niderland rəsmiləri 3800 nəfərin maliyyə hesabları ilə bağlı təhqiqat aparırlar. Həyata keçirilən reydlər Haaqa, Hoofdor, Zvoll və Venlo şəhərləri üzrə mərkəzləşdirilmişdir. İki şəxs dərhal həbs edilmişdir. Prokurorluğun mətbuat xidmətindən «Reuters» agentliyinə verilən məlumata əsasən, istintaq əməliyyatları sürətlə və operativ şəkildə aparılacaq.

Son bir neçə il ərzində Niderland hökuməti xarici banklarda qanunsuz şəkildə açılmış bank hesablarının üzə çıxarılması sahəsində ardıcıl səylər göstərir. Xaricdəki bank hesablarını vergidən gizlədən və bəyannamə təqdim etməyən insanları 300% həcmində cərimə və ya cinayət məsuliyyətinə cəlb olunma kimi arzuolunmaz aqibət gözləyir.

# «LinkedIn» Rusiyada vergi ödəyicisi kimi qeydiyyata alınıb

Rusiyada internet xidmətləri göstərməyə görə əlavə dəyər vergisi ödəmək üçün qeydiyyat siyahısında artıq 128 xarici şirkət var. «Google», «Amazon», «Alibaba», «Netflix», «Microsoft» kimi şirkətlər artıq Federal Vergi Xidmətində qeydiyyatdadırlar.

«LinkedIn» şirkəti rusiyalıların şəxsi məlumatlarını verməkdən imtina etdiyinə görə, keçən ilin noyabr ayından onun ölkə ərazisindəki fəaliyyətinə qadağa qoyulmuşdu. Bu günlərdə isə şirkətin nümayəndəsi bildirmişdi ki, sosial şəbəkənin fəaliyyətinin bərpası ilə bağlı Rusiyanın Dövlət Nəzarət Komitəsi ilə danışıqlar nəticə verməmişdir.

Qeyd edilmişdir ki, sosial şəbəkə hazırda rusca işləyir və vergi qeydiyyatı problemi həll olunandan sonra yaxın zamanlarda öz fəaliyyətini bərpa edə biləcək.

# Rusiyada gəlir vergisinin dərəcəsi artırıla bilər



Ölkənin Ticarət-Sənaye Palatasının rəhbəri Sergey Katırin bildirmişdir ki, hazırda hökumət yeni 21/20 vergi sxeminin tətbiqi ilə bağlı müzakirələr aparır. Bu sxem çərçivəsində ölkənin bütün regionlarında ticarət rüsumu tətbiq edilə, gəlir vergisinin dərəcəsi isə 15%-ə qaldırıla bilər.

S.Katırinin sözlərinə görə, hökumət sosial sığorta sistemində ümumi ödəniş məbləğini 21%-dək aşağı salmağı planlaşdırır. Bununla yanaşı, ƏDV dərəcəsinin 20%-dək artırılması da müzakirə mövzusudur. S.Katırin hesab edir ki, bu cür kəskin dəyişmə iqtisadiyyata mənfi təsir göstərə bilər: bunula vətəndaşların gəlirləri, eləcə də işgüzar fəallığı azalacaq, Pensiya Fondununsa dövlət büdcəsi hesabına artırılması zərurəti qaçılmaz olacaq. Palata rəhbərinin rəyinə görə, iqtisadi islahatlar öncə biznesin stimullaşdırılmasına yönəldilməlidir.

Qeyd edək ki, hazırda Rusiya Federasiyasında gəlir vergisinin dərəcəsi 13%, əlavə dəyər vergisinin dərəcəsi isə 18% təşkil edir.

# Vergidən yayınmaya qarşı mübarizə üçün texniki həll təklif edilib

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) vergidən yayınma hallarının və digər vergi cinayətlərinin qarşısının alınması, aşkara çıxarılması və aradan qaldırılması üçün texnologiyalardan istifadə olunmasına dair məruzəsini açıqlamışdır. «Vergi ödəməkdən yayınma və vergi fırıldaqçılığı problemlərinin həlli üçün texnologiya alətləri» adlı hesabatda hökumətlərə hər il toplaya bilmədikləri milyardlarla gəlirləri büdcəyə cəlb etməyə yardımçı ola biləcək həllər təklif edilir.

OECD-nin hesabatında vergi cinayətlərini effektiv şəkildə aşkara çıxarmaq və gizlədilən vəsaitləri qaytarmaq üçün 21 ölkənin vergi administrasiyaları tərəfindən istifadə edilən texnologiyalara dair konkret misallar göstərilmişdir. Bu alətlər biznes və fiskal orqanlar üçün vergi tənzimləməsinin xeyli yüngülləşdirilməsinə də yardımçı ola bilər.

OECD 21 ölkənin təcrübəsinə əsaslanaraq vergi cinayətlərinə qarşı texnologiyalardan səmərəli şəkildə istifadə edilməsi üzrə qabaqcıl təcrübənin real və asan tətbiq oluna bilən nümunələrini də təqdim etmişdir.

Məsələn, Kanadanın Kvebek əyalətində restoran sektorunda tətbiq olunan «ticarət nöqtələri» texnologiyası vergi daxilolmalarının 822 milyon avro məbləğində artmasına imkan vermişdir. Macarıstanda isə elektron kassa aparatlarının tətbiqi əlavə dəyər vergisinin yayındırılmasının qarşısını almış, bu vergi növü üzrə yığımın 15% artmasına şərait yaratmışdır.

## Xəbər lenti

**Avropa Komissiyası** qitə metallurqlarının mənafeyinin qorunması məqsədilə Çindən idxal edilən polad üçün antidempinq rüsumlarına yenidən baxıldığını bildirmişdir. Rəsmi Pekin bu qərarı narazılıqla qarşılamışdır.

**Vyetnam** hökuməti sosial şəbəkələr və məlumat mübadiləsi xidmətləri vasitəsilə danışıqlar apararaq əlavə dəyər vergisi ödəməkdən yayınan şirkətlərə qarşı ən sərt tədbirlər görüləcəyini bəyan etmişdir.

**Nigeriya** neft gəlirlərindən asılılığı azaltmaq üçün silsilə vergi islahatları aparmalıdır. BVF-nin tövsiyəsi belə olmuşdur.

**Ukrayna** hökuməti BVF ilə məsləhətləşmələr zamanı geniş əhatəli vergi islahatları aparmağı planlaşdırdığını bildirmişdir.

**Böyük Britaniya**da rəyi soruşulan aparıcı biznes rəhbərlərinin 74%-nin fikrincə, İrlandiya ən rəqabətli vergi rejiminə malik üç ölkədən biridir. Dünyada nüfuzlu KPMG auditor şirkətinin araşdırmasının nəticəsi belə olmuşdur.

**İslandiya** hökuməti ƏDV-nin standart dərəcə ilə tətbiq edildiyi mal və xidmətlərin siyahısının genişləndirilməsi barədə qərar qəbul etmiş, ƏDV-nin dərəcəsinin azaldılmasını gündəliyə gətirmişdir. Gözlənilir ki, hazırda 24% olan ƏDV-nin dərəcəsi 2019-cu ildən 22,5%-ə endiriləcək.

**Avstraliya** hökuməti spirtli içkilərə qoyulan vergilərə yenidən baxılmasını və bu sahə üzrə tənzimlənmənin təkmilləşdirilməsini təklif etmişdir. Hazırda spirtli içkilər yalnız xüsusi mağazalarda satılır. Hökumət onların supermarketlərdə, yanacaqdoldurma məntəqələrində və digər pərakəndə satış nöqtələrində satılmasına icazə verilməsini təklif edir. Nəzərdə tutulan yeni vergi isə bütün spirtli məhsullar üçün vahid və standart olacaq.

# Azad iqtisadi zonalardan büdcəyə 59,3 milyard dollar vergi daxil olub

Keçən il Çinin dörd iri azad iqtisadi zonası dövlətə 409 milyard yuan (59,3 milyard ABŞ dolları) vergi gəlirləri gətirmişdir. Ölkənin vergi administrasiyasının məlumatına əsasən, Şanxaydakı Tyantsizin, Funtsyan və Quandun əyalətlərindəki azad iqtisadi zonalardan vergi yığımının artımı sürətli iqtisadi inkişafa, güclü sənaye kompleksinin yaradılmasına və innovasiyaların tətbiq olunmasına şərait yaratmışdır. Vergilərin 90%-i müasir xidmətlər sektorundan daxil olmuşdur. İnternet, proqram təminatlarının işlənilməsi və informasiya xidmətlərinin göstərilməsi vergi yığımının qeyri-adi həcmdə artımına səbəb olmuşdur. Quandun azad iqtisadi zonasında və Şençjendə vergi yığımındakı artım müvafiq olaraq 470 və 390 faiz təşkil etmişdir.

Bundan əlavə, 2016-cı ildə azad iqtisadi zonalarda avtomobil istehsalından yığılan verginin artımı Çinin digər ərazilərindəki 34%-lə müqayisədə 44% olmuşdur.

krossvord



**Yuxarıdan aşağı:** 1.Rusiya Federasiyasının paytaxtı; 2.Kimyəvi element; 3.Meksikada bələdiyyə; 4.Qabaqcadan hazırlanmış suallara cavab almaq üçün sorğu vərəqəsi; 5.Fiqurlu konkisürmədə ən sadə tullanma; 6.Döyüş əməliyyatlarının aparılması və yerdəyişmə üçün minik atlarından istifadə edilən qoşun növü; 9.Kişi adı; 13.İtaliya bəstəkarı Cüzeppe Verdinin populyar opera əsəri; 15.Tərcümədə «ağ dağ» mənasını verən kristal massiv - Alp dağ sisteminə daxil olan Qərbi Alp dağlarında yerləşir; 16.Şərqdə ilk opera («Gəlin qayası») yazan bəstəkar qadın. Azərbaycanın xalq artisti, populyar mahnı və romansların, operetta və pyeslərin müəllifinin adı; 17.Hollivud ulduzu, ABŞ-ın Kaliforniya ştatının keçmiş qubernatorunun adı; 18.Qədim Misir mifologiyasına görə qoruyucu tanrı (başı insan, bədəni şir); 20.Açıq, aşkar, gözlə görünən, göz qabağında olan; 21.Sibir və Kazan xanı (1496-1497). **Soldan sağa:** 1.Dağıstan Respublikasının paytaxtı; 5.Rusiya Federasiyasının Perm vilayəti ərazisində çay; 7.Yunanıstanın ikinci böyük şəhəri; 8.Yanma zamanı çıxan od; 10.Rusiya Federasiyasının Sverdlovsk vilayəti ərazisində çay; 11.Abşeron ərazisində yerləşən, bütün Şərqdə nadir gözəlliyi ilə diqqəti cəlb edən, yaşı bir əsrdən çox olan məscid; 12.Türk mifologiyasında od tanrısı *(xan)*; 14.Moskvanın mərkəzində tarixi kompleks; 19.Kişi adı; 21.Yazıçı, nasir, tərcüməçi, geologiya-mineralogiya elmləri namizədi (1942), dosent, əməkdar mədəniyyət xadimi. «Fırtına», «Zirvələrdə», «Dalğalar qoynunda» və s. əsərlərin müəllifinin adı; 22.Azərbaycanla qonşu dövlət; 23.Kəskin boğucu iyi olan dezinfeksiya maddəsi; 24.Qohumluq dərəcəsi; 25.Egey dənizin cənub-şərqində, Yunanıstana məxsus arxipelaq. Tərcümədə «on iki ada» mənasını verir.



*Alp dağ sisteminə daxil kristal massiv*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Ərməki; 2.Rikoşet; 3.Satin; 4.Yarşor; 5.Lotos; 6.Kirayə; 9.Miri; 13.Kivi; 15.Eskulap; 16.Abajur; 17.Sandal; 18.Sianid; 20.Zurab *(Seretelli)*; 21.Takis *(Zenetos)*. **Soldan sağa:** 1.Əfrasiyab *(Bədəlbəyli)*; 5.Lək; 7.Mikstura; 8.Atar; 10.Kuşan; 11.Odissey; 12.Stiks; 14.Lider; 19.Buzovna; 21.Taksi; 22. Jiro *(Sebastyen Şarl)*; 23.Odekolon; 24.Rüb; 25.Velosiped.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi:
Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor:
Anar Əliyev
anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:
Məti Osmanoğlu
redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan:
AZ 1141, Bakı ş.,
Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon:
012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

idman

# Azərbaycan güləşçiləri ən güclülər sırasında...



Dünya Güləş Birliyi 2017-ci ilin martında keçirilən yarışların yekunlarına əsasən reytinq cədvəlini açıqlayıb

Azərbaycan Güləş Federasiyasından bildiriblər ki, reytinq cədvəlində yunan-Roma güləşi üzrə 10 Azərbaycan idmançısının adı yer alıb. Onlardan 7-si ilk onluğa daxil olub. Olimpiya Oyunlarının bürünc medalçıları, 66 kiloqram çəki dərəcəsində mübarizə aparan Rəsul Çunayev reytinqdə 3-cü, Sabah Şəriəti (130 kq) isə 4-cü yerdədir. Dünya çempionatının bürünc medalını qazanan Həsən Əliyev (71 kq) öz çəkisi üzrə üçüncü sırada qərarlaşıb. Onluğa daxil olan digər güləşçilərdən Rafiq Hüseynov (80 kq) 5-ci, İslam Abbasov (85 kq) 6-cı, Elvin Mürsəliyev (75 kq) 7-ci, Rövşən Bayramov (59 kq) isə 9-cu yerdədir.

Qadın güləşçilərin reytinq sıralamasında 9 təmsilçimizin adı var. Onlardan ikisi ilk beşlikdə qərarlaşıb. Ən yüksək göstərici Olimpiya Oyunlarında 48 kiloqram çəkidə gümüş medal qazanan Mariya Stadnikdədir. Güləşçimiz reytinqdə ikinci sırada qərarlaşıb. Olimpiadanın bürünc medalçısı Nataliya Sinişin (53 kq) reytinqdə 4-cüdür.

Sərbəst güləşçilərimizdən isə 16 nəfər reytinq siyahısında yer alıb. Onlardan yeddisi öz çəki dərəcələrində ilk onluğa, beşi isə ilk beşliyə daxil ola bilib. Rio Yay Olimpiya Oyunlarının gümüş medalçıları Toğrul Əsgərov (65 kq) və Xetaq Qazyumov (97 kq), bürünc medalçı Cəbrayıl Həsənov (74 kq) reytinqdə ikinci sırada qərarlaşıblar. Olimpiadanın bürünc medalçısı Hacı Əliyev (61 kq) və qeyri-Olimpiya çəki dərəcəsində dünya çempionatının bürünc medalçısı Əhmədnəbi Qvarzatilov (61 kq) reytinq siyahısında dördüncü olublar. Onluğa daxil olan digər güləşçilərimiz isə Aslanbek Alborov (97 kq) və Cəmaləddin Məhəmmədovdur (125 kq).

# «Synergy Baku» Mərakeş turunda liderliyi əldən vermir



Azərbaycanın kontinental velosiped komandası «Synergy Baku» Mərakeşdə təşkil olunan 10 günlük «Tour de Maroc» yarışında uğurlu çıxışını davam etdirir. Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2.2 kateqoriyalı turunun ilk mərhələsi yığma komandamızın üzvü Kiril Pozdnyakovun qələbəsi ilə yekunlaşıb. 148,7 km məsafəni hamıdan tez - 3 saat 31 dəqiqə 51 saniyəyə başa vuran təmsilçimiz ən yaxın izləyicisini 13 saniyə qabaqlamaqla «solo-finiş» edib. İlk mərhələdəki qalibiyyət idmançımızın ümumi təsnifatı lider kimi başa vurmasına səbəb olub. Bundan başqa, o, sprinterlərin mübarizəsində də birinci pilləyə yüksəlib.

İlk mərhələni 20-likdə başa vuran velosipedçilər arasında «Synergy Baku»nun daha 2 üzvü (Elçin Əsədov 9-cu, Yosip Rumaç 14-cü) olub.

Turun 4-cü mərhələsində də təmsilçilərimizin çıxışı uğurlu alınıb. Kifayət qədər çətin dağ yolları ilə yadda qalan 191 km-lik marşrutu yığma komandamızın üzvü Kiril Pozdnyakov 5 saat 28 dəqiqə 15 saniyəyə başa vurmaqla ən yaxın izləyicisini 13 saniyə qabaqlayıb və 1-ci mərhələdə olduğu kimi, yenidən «solo-finiş» edib. Bundan başqa, velosipedçimiz sprinterlərin mübarizəsində də birinci pilləyə yüksəlib və 5-ci mərhələyə lider köynəyi ilə başlamaq hüququ qazanıb.

«Synergy Baku»nun digər üzvü Yosip Rumaç dağ yollarında topladığı xallar hesabına ən yaxşı dağ velosipedçisi üçün nəzərdə tutulan «Dağlar Kralı» köynəyinə yiyələnib. Bütün bunlar 4-cü mərhələnin yekununda idmançılarımızın 3 dəfə fəxri kürsüyə qalxması ilə nəticələnib.

Qeyd edək ki, Mərakeş turu komandamızın mayın 3-7-də ölkəmizdə təşkil olunacaq növbəti «Tour d'Azerbaidjan» yarışına hazırlığının əsas hissəsini təşkil edir.

TOUR d'AZERBAIDJAN 03.05 - 07.05 /2017

## 19 ölkə, 23 komanda...

Mayın 3-7-də dünya velosiped aləminin ürəyi yenidən Azərbaycanda döyünəcək - planetin müxtəlif qitələrini təmsil edən 19 ölkənin 23 komandası ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Beynəlxalq Velosipedçilər İttifaqının 2.1 kateqoriyalı «Tour d'Azerbaidjan» velotурunda mübarizə aparacaq. Beş gün davam edəcək ənənəvi turnirdə iştirakçılar Bakı və Sumqayıt şəhərləri, həmçinin Qaradağ, Abşeron, Qobustan, Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Göyçay və Ağsu rayonlarının ərazisindən keçməklə ümumilikdə 836 km məsafə qət edəcəklər.

Qeyd edək ki, ötən illə müqayisədə bu il turun marşrutunda ən önəmli dəyişiklik 4-cü mərhələ ilə bağlıdır. Belə ki, yarışın ən çətin dağ mərhələsinə Ağsu dolayları da əlavə edilib ki, bunun da mübarizəyə əlavə rəng qatacağı şübhəsizdir.

mozaika

texnologiya

# Özü bərpa olunur



Amerikalı alimlər zədələnən zaman özünü bərpa edə bilən material hazırlayıblar. Yeni maddə elektrik keçirmək xüsusiyyətinə malik olduğundan, onu smartfonlar üçün displey kimi də istifadə etmək mümkündür.

Kəşfin müəllifləri Kaliforniya Universitetinin bir qrup alimidir. Qrupun rəhbəri Çao Van bildirib ki, material dartıldığı zaman onun uzunluğu 50 dəfə artır, parçalandıqda isə hissələri bir sutkadan gec olmayaraq yenidən bərpa olunur. Yeni işləmənin əsasını ion-dipol əlaqəsi prinsipi təşkil etdiyinə görə, molekullar bir-birini cəzb edərək cızıq və parçalanmaları aradan qaldırır. Ç.Vanın sözlərinə görə, üç ildən sonra özünü bərpa edən materiallar sənayedə, xüsusilə smartfonların istehsalında kütləvi istifadə olunacaq.

Qeyd edək ki, bundan əvvəl də alimlər tərəfindən xüsusi maye əsaslı özünü bərpa edən material hazırlanıb. Həmin materialın istifadəsi kosmik sahədə baş verən qəzalar zamanı nəzərdə tutulub.

tədqiqat

# Qan qrupunu müəyyənləşdirən kağız

Amerikalı tədqiqatçılar insanın qan qrupunu 30 saniyə ərzində müəyyənləşdirən xüsusi kağız hazırlayıblar. Alimlər baş vermiş ekstremal hadisələr zamanı qan qrupunun müəyyənləşdirilməsi üzrə aparılan laborator analizlərə sərf olunan vaxt itkisinin qarşısını alan yeni metod yaratmağa müvəffəq olublar. Mütəxəssislərin fikrincə, tədqiqatçıların bu yeni kəşfi xəstənin həyatı üçün dəyərli olan vaxt itkisini əhəmiyyətli dərəcədə azaldacaq.

Yeni metodun əsasını insan qanının reagentlərlə örtülmüş xüsusi vərəqlə təması təşkil edir. Kağız eritrositlərin çökmə sürətindən asılı olaraq müxtəlif rənglərə boyanır və bununla da həkimlər qanın hansı qrupa aid olduğunu müəyyənləşdirirlər.

saǧlam qida

# Qulançar mövsümü başladı



Bu bitki elmi təbabətdə mərəçöyüd, el arasında daha çox qulançar adı ilə məşhurdur. İl yağıntılı gələndə və tez-tez yağışlar düşəndə qulançar quru, daşlı-çınqıllı yamaclarda və qaratikan kollarının ətrafında yaxşı inkişaf edir. Təbii şəraitdə bitkinin vegetasiya dövrü fevralın əvvəllərində, qönçələməsi martın ortalarında, çiçəkləməsi mayın axırlarında başlayır və bir aya qədər davam edir. Limonu-sarı rəngdə olan çiçəkləri 18 dərəcə temperaturda yarım aya qədər qalır.

Vegetasiya başlayandan 10-15 gün sonra zoğları inkişaf edir. Həmin dövrdə onun tər, yumşaq və cavan zoğları toplanılaraq çiy halda yeyilir. Zahirən qanqalı xatırladan cavan zoğları çox vitaminli və xeyirlidir. Qulançarı həm də bişirib yeyirlər. Budaqları duzlu suda pörtlədilir, azca sıxılaraq duzu çıxarılır və yağsoğanla qızardılır. Qidalılığına və dadına görə çox qiymətlidir.

Qədim Misirdə onu «hökmdarların məhsulu» adlandırırdılar. Qulançarın faydalı cəhətləri həmişə təbabətin diqqət mərkəzində olub. Təkcə Şərqdə deyil, Avropa ölkələrində də bitkidən geniş istifadə olunur. Kulinariyada qulançar salatı və püre şorbası geniş yayılıb. Təbabətdə isə vərəm, böyrək, şəkər və ürək-damar xəstəliklərində müxtəlif reseptlər əsasında bitkidən müalicəvi dərmanlar hazırlanaraq qəbul edilir. Sidikqovucu təsir göstərir, toxumunun balla qarışığı sonsuzluğa qarşı ən yaxşı vasitələrdən biri hesab olunur.

bilirsinizmi...

# Misir kraliçalarının gözəllik vasitəsi



Miladdan əvvəl 1500-cü ildə yaşamış misirlilərin papirus üzərindəki yazılarda əzvaydan istifadə etdikləri barədə xəbər verilirdi. Yunan, Misir, Roma, eləcə də Hind və Çin mədəniyyətlərində də bu bitki ilə əlaqədar məlumatlara rast gəlmək mümkündür. 1862-ci ildə əldə edilən məlumatlara görə, Misir kraliçaları gözəlliklərini qorumaq üçün ondan istifadə ediblər.

Vətəni Afrika olan əzvay bitkisini bəzən aloye də adlandırırlar və bu uzunömürlü bitkinin çoxlu növləri var. Onu otaq şəraitində çətinlik çəkmədən yetişdirmək mümkündür, lakin inkişafı sürətli deyil və boyu çox uzanmır. Özündə çox su saxlamayan daşlı və ya çör-çöplü bağça torpağında əzvayın əkilməsi daha yaxşıdır. Bitkinin budaqlarından torpağa ən yaxın olanı kəsilərək müəyyən müddət suda saxlanılaraq kök atmasını gözləyir, kök atandan sonra başqa bir saxsı qabda münbit torpağa əkilərək çoxaldılır. Zaman keçdikcə torpaqdan yuxarı qalan hissə yarpaqlamağa başlayır. Saxsı qabdakı torpaq tam quruyandan sonra sulanmalı, torpağın bütün qatlarına çatana qədər su verilməlidir. Əzvay böyük qabda və açıq havada olanda onu hər gün sulamaq olar, su həmişə eyni həcmdə və günün eyni vaxtında verilməlidir. Bitkini küləkdən və sərt havadan qorumaq lazımdır.

Yüz illərdir ki, əzvaydan tibbi və kosmetik məqsədlərlə istifadə edilir. O, qida dəyəri yüksək olan bitkidir, orqanizmi qüvvətləndirir, həzmi asanlaşdırır, ödü təmizləyir, qəbizliyi aradan qaldırır. Bağırsaq mikroflorasını bərpa edir, mədə xorası zamanı da faydalı təsir göstərir.

Əzvay gözəllik və dəri sağlamlığı üçün çox xeyirlidir - iltihab əleyhinə və regenerasiyaedici funksiyaya malikdir, yanıqlar zamanı da ondan istifadə edilməsi yaxşı nəticə verir.




ELAN

**«Vergilər» qəzetinə**
**2017-ci il üçün**
**abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


Müdriklər deyib ki...

***«Haqq uğrunda sərf olunan pul heç bir vaxt israf sayılmaz».***

*Əmir Teymur (1336-1405)*

